Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

2-4 MAY 2020-ci il

№ 70 (4201)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# ERMƏNİLƏR QARABAĞ PROBLEMİ TARİXİNDƏ YENİ SAXTA SƏHİFƏ TAPIBLAR - «KOLTSO» ƏMƏLİYYATI(?)

■ səh. 8 ■




## Karantin müddəti mayın 31-dək uzadıldı - Aktiv yoluxma zonaları - Gəncə və Lənkəran...

■ səh. 3-4 ■


Başqa ölkələrdən daha bir fərq - Azərbaycanın yuxarı məmurlarından kimsə koronavirusa yoluxmadı... ■ səh. 5 ■

Ermənistanın Qarabağ ümidləri tam qırılır - Kreml İrəvana konkret mesajlar verməyə başladı ■ səh. 9 ■

Başqa bəzi ölkələr 65-dən yuxarı yaşlı xəstələri müalicə etməkdən yayınır, Azərbaycanda 92 yaşlı virus xəstəsi sağaldılır ■ səh. 7 ■

Koronavirus və aşağı iqtisadi fəallıq şəraitində Azərbaycanda sığorta əməliyyatları artıb - maraqlı prosesin kökü... ■ səh. 10 ■

Milli Məclis bu hakimləri yeni vəzifələrə təyin edəcək... ■ səh. 6 ■

BVF-dən Azərbaycan barədə mübahisəli proqnoz - idxal da, ixrac da azalacaq... ■ səh. 10 ■

ABŞ-la Çin arasında yeni iqtisadi savaş başlayır - Azərbaycan yenə az itki ilə çıxacaq... ■ səh. 11 ■

"Mobil notariatlar" etibarnamə verilişlərinə başladı - Azərbaycanda daha bir ilk... ■ səh. 14 ■




Həbs edilən icra başçısının təəccüblü tərcümeyi-halı var - beləsinin sənədləri Prezidentin masasının üzərinə necə gedir... ■ səh. 6 ■




Ermənistan mediası baltanı kökündən vurdu - Paşinyan ölkə üçün total «uğursuzluq mənbəyi» kimi... ■ səh. 8 ■

Azərbaycanın koronavirusla mübarizəsi beynəlxalq təcrübə modeli kimi rəsmən qəbul olundu ■ səh. 5 ■

Nizami Xudiyev Prezidentə müraciət etdi... ■ səh. 2 ■



260 məhbus şərti azadlığa necə buraxıldı... ■ səh. 4 ■



"Karantindən sonra da kütləvi yas mərasimləri keçirilməsin" - mütəxəssislər vahid mövqeyə gəlir... ■ səh. 13 ■



Bir qəpik də vergi, sığorta ödəməyən repetitor-müəllimlər də dövlətdən yardım istəyir... ■ səh. 13 ■



Tələbələr keçmədikləri dərslərin də haqqını ödəyiblər - bəzi təhsil haqları geri qaytarıla bilərmi... ■ səh. 15 ■



# Prezident İlham Əliyev Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edib



**Prezident İlham Əliyev Kamran Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

Dövlət başçısının digər Sərəncamı ilə Kamran Əliyev Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi vəzifəsindən azad edilib.

Prezident İlham Əliyev mayın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edib.

## Böyük Vətən Müharibəsi iştirakçıları Azərbaycan Respublikasının yubiley medalı ilə təltif ediləcək

**Prezident İlham Əliyev Böyük Vətən müharibəsi iştirakçılarının "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, 1941-1945-ci illər Böyük Vətən müharibəsi cəbhələrində döyüş əməliyyatlarında iştirak etmiş, faşist işğalçılarına qarşı gizli mübarizə aparmış, arxa cəbhələrdə çalışmış, həmin dövrdə SSRİ Silahlı Qüvvələrində xidmət etmiş şəxslər "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilir.

Nazirlər Kabineti "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalının və onun vəsiqəsinin hazırlanması ilə əlaqədar tədbirlər görməli, yubiley medalı ilə təltif olunacaq şəxslərin siyahısının tərtib edilməsini və medalların təqdim olunmasını təmin etməlidir.

## DTX Biləsuvarın icra başçısının həbsi ilə bağlı məlumat yaydı

**Azərbaycan Respublikası ərazisində xüsusi karantin rejiminin tətbiq edildiyi, dövlət strukturlarının fəaliyyətinin əhalinin sağlamlığının qorunması istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən şəxsi maraqları naminə istifadə edərək vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərə yol verməlrinə dair məlumatlar əsasında araşdırma tədbirləri həyata keçirilməkdədir.**



Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr şöbəsindən baki-xeber.com-a verilən məlumata görə, toplanmış materiallar üzrə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevin birinci müavini Xanlar Məmmədov vasitəsilə xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar maddi yardıma ehtiyacı olan şəxslərə sosial yardım üçün ayrılan vəsaitin bir qismini hissə-hissə mənimsəməsi, habelə icra hakimiyyətinin sərəncamında olan digər vəsaitlərdən sosial yardım adı altında ayıraraq hissəsinin ona verilməsini tapşırmasına dair əsaslı şübhələr müəyyən olunub.

Bundan başqa, Mahir Quliyevin köməkçisi Pöhran Şahbazov və tabeliyində olan başqa vəzifəli şəxslər vasitəsilə yerli icra hakimiyyəti və digər dövlət orqanlarının vəzifəli şəxslərindən, eləcə də rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardan müxtəlif adlar altında özünün pul vəsaitləri tələb edərək almasına dair əsaslı şübhələr müəyyən edilib.

Həmçinin dövlət qayğısı ilə əhatə olunmuş işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün əməkhaqqı kartlarına köçürülən məbləğlərin Mahir Quliyev tərəfindən ələ keçirilməsinə dair məlumatlar əldə edilib.

Eyni zamanda, Mahir Quliyev tərəfindən təmir-tikinti, abadlıq işlərinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin nağdlaşdırılaraq mənimsənildiyinə, vətəndaşlardan müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə təkrarən rüşvət tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin 2020-ci il aprelin 29-da həyata keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində Mahir Quliyevin xidməti otağında növbəti dəfə rüşvət almasından sonra məhkəmənin qərarı əsasında keçirilmiş baxış zamanı həmin pul vəsaitləri, aparılan araşdırmalarla bağlı iş üzrə əhəmiyyət kəsb edən müxtəlif sənədlər və digər maddi sübutlar aşkar edilərək götürülüb.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Mahir Quliyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, təkrar rüşvət alma, mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə məsuliyyətə cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda araşdırmalar davam etdirilir.

# Nizami Xudiyev Prezidentə müraciət etdi...



**"Dünyanın bütün ölkələrinin dəhşətli koronavirus bəlası ilə üzüzə qaldığı bir şəraitdə Sizin rəhbərliyinizlə həyata keçirilən təxirəsalınmaz, qabaqlayıcı və ardıcıl tədbirlər xalqımızın bu dəhşətli fəlakətdən ən az itki ilə çıxmasına yönəlib.**

Bu məqsədlə ölkəmizdə ayrı-ayrı istiqamətlər üzrə gerçəkləşdirilən kompleks tədbirlər, sosial izolyasiya və karantin rejimi qaydaları, əhalinin sosial müdafiəsinə göstərilən dövlət dəstəyi, iqtisadiyyatın müəyyən sahələrinin fəaliyyətində dayanıqlığın qorunub saxlanılması və digər fəaliyyət proqramları öz səmərəsini verməkdədir".

Bu fikirlər YAP-ın İdarə heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi kafedrasının müdiri Nizami Xudiyevin Prezident İlham Əliyevə ünvanladığı məktubda əks olunub.

Tanınmış elm xadimi, həmçinin, Prezidentə yazır ki, kütləvi informasiya vasitələrində genişmiqyaslı maarifləndirmə işlərinin aparılması, vətəndaşlarımızın sağlamlığının qorunması və müalicəsi üçün az bir vaxtda müəssisə və klinikaların inşa edilməsi, ölkəmizdən kənarda olan soydaşlarımıza dövlət səviyyəsində qayğı və dəstək göstərilməsi və digər tədbirlər Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətlərinin və yüksək təşkilatçılıq qabiliyyətinin nəticəsidir: "Bütün bu tədbirlər kompleksi öz müsbət təsirini göstərməkdədir. Dünyanın bir sıra ölkələri ilə müqayisədə respublikamızda koronavirus pandemiyasına qarşı mübarizənin dinamikasında müsbət təzahürlər müşahidə olunur. Mən milyonlarla Azərbaycan vətəndaşından biri kimi ölkəmizin çox ağır bir sınaqla üzbəüz qaldığı bir şəraitdə Sizin ardıcıl və qətiyyətli şəkildə davam edən fəaliyyətinizi bəyənir və müdafiə edirəm. İnanıram ki, xalqımız və dövlətimiz bu sınaqdan uğurla çıxacaq. Sizə və xalqımıza sağlam həyat və firavanlıq arzu edirəm".

*Xəbər xidməti*

# Pandemiya ilə mübarizəyə dair alim sözü - İqtisad Universitetinin kafedra müdiri Arif Şəkərəliyev Prezidentə yazdı...

**Dövlətimizin pandemiya ilə mübarizə aparmasına baxmayaraq, digər sahələrin də inkişafına diqqət yetirməsi, vətəndaşların qayğısına hərtərəfli şəkildə qalması ölkənin elm ictimaiyyətinin də təqdir etdiyi məsələdir.**

Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Şəkərəliyev Arif Şəkərəli oğlu Prezident İlham Əliyevə ünvanladığı müraciətdə pandemiya ilə mübarizədə dövlətin həyata keçirdiyi tədbirlərin əhəmiyyətini vurğulayır. "Koronavirus (COVID-19) epidemiyasının bütün dünyanı bürüdüyü, minlərlə insanın bu xəstəlikdən həyatını itirdiyi bir vaxtda Sizin Azərbaycan xalqının sağlamlığının qorunması naminə gördüyünüz qabaqlayıcı tədbirlər ölkənin təhsil işçiləri tərəfindən rəğbətlə qarşılanır. COVID-19 pandemiyasına qarşı apardığınız qətiyyətli mübarizəyə görə Sizə minnətdarıq".

O, həmçinin, qeyd edir ki, Prezidentin yolu Heydər Əliyev yoludur və bu yol xalqın, millətin gələcəyinin, güzəranının, əhval-ruhiyyəsinin daha da yaxşılaşdırılması yoludur. "Azərbaycan xalqı öz doğma Prezidentinə güvənir və etibar edir. Siz güclü Azərbaycan dövlətinin ideyasını həyata keçirirsiniz. Sizin həyata keçirmiş olduğunuz iqtisadi strategiya islahatların aparılması, innovasiya, yeni texnologiyaların istehsala tətbiqi və qeyri-neft sektorunun inkişafına söykənir. Mənim çalışdığım Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professor-müəllim heyəti öz Prezidentinə həmişə sadiqdir" - deyə professor Şəkərəliyev məktubunda bildirir.

*Xəbər xidməti*

# Karantin müddəti mayın 31-dək uzadıldı - Aktiv yoluxma zonaları - Gəncə və Lənkəran...

**Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək xüsusi karantin rejiminin müddəti 31 may 2020-ci il saat 00:00-dək uzadılıb.**

Bu barədə baki-xeber.com-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Eyni zamanda, əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq, tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına qərar verilib.

Məhdudiyyətlərin yumşaldılması mövcud sanitar-epidemioloji vəziyyət, xəstə sayı və yoluxma sürəti əsas götürülərək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu və digər regionlar üzrə mərhələ ilə həyata keçirilir.

Bununla əlaqədar Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə 4 may 2020-ci il saat 00:00-dan etibarən:

- dövlət qurumlarının işçilərinin fəaliyyəti müəyyən olunmuş sayda bərpa olunur (fəaliyyəti bərpa olunan dövlət qurumlarının işçilərinin say həddi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən ediləcək);
- "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;
- xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;
- bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;
- bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur.



Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu istisna olmaqla respublikanın digər rayon və şəhərlərində və Naxçıvan Muxtar Respublikasında 4 may 2020-ci il saat 00:00-dan etibarən:

- yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur;
- "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;
- dövlət qurumlarının işçilərinin tam sayda fəaliyyəti bərpa olunur;
- restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər bərpa olunur (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla);
- bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət götürülür;
- qeyd olunan ərazilərdə rayonlar və şəhərlərarası gediş-gəliş bərpa olunur (ictimai nəqliyyatla sərnişindaşıma xidməti istisna olmaqla);
- xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;
- bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;
- bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur.

Xüsusi karantin rejimində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, eyni zamanda ictimai iaşə obyektlərində bir yerdə insanların 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağandır.

Respublika üzrə bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması 31 may 2020-ci il tarixinədək uzadılır.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda məhdudiyyətlər aradan qaldırılan sahələrdə işləyən şəxslər barədə məlumat verilir.

Pandemiya dövründə ölkə ərazisində müvafiq strukturların, habelə ticarət və xidmət sahələrinin fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilməlidir.

Bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız zəruri hallarda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, dövlət tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə yol dən həyata keçirilən tədbirlərə yaxından dəstək göstərməyə, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırırıq.

Növbəti mərhələdə sanitar-epidemiloji vəziyyətdən asılı olaraq mövcud məhdudiyyətlərdən daha bir qisminin aradan qaldırılması ilə bağlı qərar veriləcək.

Qeyd edək ki, COVID-19 virusu ilə bağlı ölkədəki sanitar-epidemioloji vəziyyət mütəmadi təhlil edilərək müvafiq qaydalar tətbiq olunur. Bu səbəbdən COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə bağlı ölkədəki vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi mümkündür.

«Mayın 11-dən sonra 65 yaşdan yuxarı şəxslərin evdən çıxması məsələsinə baxılacaq». "Trend"in məlumatına görə, bunu isə Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov brifinqdə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, mayın 11-dək ölkədəki vəziyyət qiymətləndiriləcək və vəziyyətdən asılı olaraq qərar veriləcək: "Mayın 4-dən tətbiq edilən yumşaldılmaya ola bilsin ki, mayın 11-də yenidən baxılsın və həmin mərhələdən sonra yumşaldılma haqqında qərar qəbul olunsun və yaxud əksinə. Situasiya diqqətlə izlənəcək və yumşaldılma barədə qərar qəbul olunacaq".

*(Ard 4-cü səh.)*

*(Əvvəli 3-cü səh.)*

**Sağalmış koronavirus xəstələrinin plazmasının ağır xəstələr üzərində tətbiqi üçün işlərə başlanır**

Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı isə deyib ki, sağalmış koronavirus xəstələrinin plazmasının ağır xəstələr üzərində tətbiqi üçün işlərə başlanır. Yəqin ki, mayın 2-dən ilkin donorlardan plazma alınaraq onların pasportlaşdırılmasına başlanacaq.

Onun sözlərinə görə, yoluxma hallarının aşkarlanması davam etdirilir: "Ölkədə diaqnostik müayinələr də davam etdirilir. Hazırda Azərbaycanın bütün bölgələrində PSR laboratoriyaları fəaliyyət göstərir. Müayinə nəticəsi pozitiv aşkar edilən xəstələrin yaxınları müəyyən edilərək onların da müayinəsi aparılıb".

**İlk modul tipli xəstəxana gələn həftə təhvil veriləcək**

R.Bayramlı bildirib ki, gələn həftə Azərbaycanda ilk modul tipli xəstəxana TƏBİB-ə təhvil veriləcək. Onun sözlərinə görə, hazırda ölkədə modul tipli xəstəxanaların tikintisi davam etdirilir:

"Gələn həftə ərzində ilk xəstəxana TƏBİB-ə təhvil veriləcək. Bu xəstəxananın işçiləri üçün təlimlər başa catmaq üzrədir. Belə xəstəxanaların tikintisi ilə çarpayı fondu və kadr potensialı daha da zənginləşdirilir".

**Həftələr üzrə yoluxma sayında azalma müşahidə edilir**

R.Bayramlı Azərbaycanda həftələr üzrə yoluxma sayında azalma müşahidə edildiyini deyib. Onun sözlərinə görə, amma aprelin 27-dən sonrakı həftə ərzində karantin rejiminin yumşaldılması ilə əlaqədar yoluxma sayındakı azalma tendensiyasında da bir azalma müşahidə edilir. Bu da onu göstərir ki, biz hər cür ssenariyə hazır olmalıyıq: "İndiyədək Azərbaycanda 1 854 nəfər koronavirusa yoluxub, 25 nəfər isə dünyasını dəyişib. Hazırda 464 nəfər aktiv xəstə Bakıda və regionlarda ayrılmış xüsusi xəstəxanalarda müalicəsini davam etdirir. Onların 20-si reanimasiyadadır ki, bu xəstələrdən 8-i süni tənəffüs aparatına qoşulub".

R.Bayramlı bildirib ki, ölkə üzrə yoluxma hallarının təxminən 50 faizi Bakının payına düşür. Yoluxma hallarının 22 faizi 50-59 yaşlı insanlar arasında qeydə alınır. Yoluxma halları daha çox qadınlar arasında müşahidə edilir.

**Aktiv yoluxma halları daha çox Gəncə və Lənkəranda müşahidə edilir**

R.Bayramlı qeyd edib ki, hazırda koronavirusa aktiv yoluxma halları daha çox Gəncə və Lənkəranda müşahidə edilir. Onun sözlərinə görə, bu, həmin ərazilərdə əhalinin karantin rejiminə əməl etməməsinin nəticəsidir: "Buna görə də əhalini karantin rejiminin tələblərinə daha ciddi əməl etməyə çağırırıq. Əgər göstəricilər arzuedilməz səviyyədə dəyişərsə, sərt və uzunmüddətli məhdudiyyətlər tətbiq edilə bilər".

**Bir sıra ictimai yerlərdə qoruyucu vasitələrdən istifadə məcburi olacaq**

R.Bayramlı bir sıra ictimai yerlərdə qoruyucu vasitələrdən istifadənin məcburi olacağını deyib. Onun sözlərinə görə, Azərbaycanda karantin rejimi ilə əlaqədar vətəndaş qəbulu, ictimai nəqliyyatda, bazar və yarmarkalarda, turizm və ictimai iaşə obyektlərində, ayrı-ayrı ofislərdə fəaliyyətin hərəkəti üzrə 6 yeni təlimat göstərişləri hazırlanıb.

TƏBİB sədri bildirib ki, göstərişlər müvafiq orqanlara təqdim edilib: "Mayın 2-də onlar koronavirus.info saytında yerləşdiriləcək. Bu təlimatların icrası çox ciddi şəkildə həyata keçirilməlidir".

R.Bayramlı qeyd edib ki, ictimai yerlərdə sosial məsafənin saxlanması önəmlidir: "Bir sıra ictimai yerlərdə qoruyucu vasitələrdən istifadə məcburi olacaq. Bununla bağlı məsələ təlimatlarda öz əksini tapacaq".

**Narıncı zonada koronavirusa yoluxma daha təhlükəlidir**

"Narıncı zonada koronavirusa yoluxma daha təhlükəlidir. Bu zonada icazə əvvəlki sistemlə qalacaq. Sarı zonada isə karantindən çıxış daha sürətlidir". Bunu isə İbrahim Məmmədov deyib.

Onun sözlərinə görə, icazə sistemi rayonlarda ləğv olunub. Vətəndaşın evdən hər hansı yerə getməsi üçün icazəyə ehtiyac yoxdur. İ.Məmmədov qeyd edib ki, dövlət orqanlarında işləyənlərin sayında tədricən artım olacaq. Amma bəzi qadağalar hələ də qüvvədə qalacaq.

Qeyd edək ki, sanitar-epidemioloji vəziyyətə əsasən narıncı rənglə qiymətləndirilən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonundan sarı rənglə qeyd olunan ölkənin digər ərazilərinə gediş və gəliş qadağası qalır. Lakin sarı zona və narıncı zona daxilində hərəkət sərbəstdir.

**Kütləvi tədbirlərlə bağlı qadağa hələ də qüvvədədir**

İ.Məmmədov deyib ki, Azərbaycanda kütləvi tədbirlərlə bağlı qadağa hələ də qüvvədədir. Onun sözlərinə görə, növbəti mərhələdən sonra bu məsələyə baxılacaq: "Hələlik qadağalar mövcuddur. Bundan əlavə, idman oyunları və digər kütləvi tədbirlərə də icazə verilmir. Hazırda yeni yoluxmalar qeydə alınsa da, vəziyyətə nəzarət olunur. Amma hələ ki, yoluxma halları olduğundan, bu qadağalar ləğv edilmir".

Toy və yas mərasimlərinə tətbiq olunan qadağanın da aradan götürülmədiyini deyən İbrahim Məmmədov əlavə edib ki, bundan əlavə, qərarda hərbi hissələrdə görüşə də icazə verilmir.

**Metronun fəaliyyətinin bərpası müzakirə olunur**

İ.Məmmədov metronun fəaliyyətinin bərpasının müzakirə olunduğunu da deyib. Onun sözlərinə görə, bununla bağlı müzakirə hələ bitməyib: "Qarşıdakı həftədə məsələ ilə bağlı qərar qəbul ediləcək. Ondan sonra ictimaiyyətə məlumat veriləcək".

## Azərbaycanda daha 50 nəfər koronavirusa yoluxdu, 40 nəfər sağaldı, 1 nəfər vəfat etdi

**Azərbaycanda 50 nəfərdə koronavirus aşkarlanıb, 40 nəfər sağalıb 1 nəfər vəfat edib.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəkərli diabet, arterial hipertenziya və ürəyin işemik xəstəliyi olan 1957-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1854 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1365 nəfər müalicə olunaraq sağalıb, 25 nəfər vəfat edib, 464 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Həmin şəxslərdən 15 nəfərin vəziyyəti ağır, 29 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 146.630 test aparılıb.

**Xəbər verildiyi kimi, koronavirusla bağlı 260 məhkum vaxtından əvvəl şərti azadlığa buraxılıb. Bu barədə Ədliyyə Nazirliyinin keçirdiyi videokonfransda nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova məlumat verib.**



# 260 məhbus şərti azadlığa necə buraxıldı...

A.Sabitova bildirib ki, pandemiya dövründə vətəndaşlarla görüşlər dayandırılıb və məhkumlar tibbi avadanlıqlarla təmin olunublar: "Koronavirusla bağlı penitensiar müəssisələr gücləndirilmiş iş rejiminə keçib. Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə virusa yoluxma risqi olan 65 yaşdan yuxarı 176 məhkum azad olunub. Eyni zamanda, 260 məhkum da vaxtından əvvəl şərti azadlığa buraxılıb".

## *Əliməmməd Nuriyev: "Məhbusların şərti azadlığa buraxılmasının tətbiqi daha da genişlənir"*

"Konstitusiya" Araşdırmalar Mərkəzinin rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qanunvericiliyə əsasən, Ədliyyə Nazirliyinin müvafiq komissiyası bir qrup məhbusun şərti azadlığa buraxılması ilə bağlı aidiyyəti qurumlara müraciət edir: "Pandemiya ilə əlaqədar olaraq yaşı 65 yaşdan yuxarı olanlar və ya səhhətində problemi olanlarla bağlı qanunvericiliyə uyğun olaraq qərar qəbul edilir. Ümumdünya Səhiyyə Təşkilatının, səhiyyə qurumlarının, eyni zamanda, Nazirlər Kabineti yanında Operativ Qərargahın rəylərinə əsasən, risq qrupuna aid olanlar azadlığa buraxıldı. Azadlığa buraxılan şəxslərin xəstəliyi, yaşı, ailə vəziyyəti nəzərə alınır".

*"Bu, ölkə başçısının humanist addımının nəticəsidir ki, belə çətin vəziyyətdə bir çox məhkum ailələrinin yanında olsun"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, məhbusların şərti azadlığa buraxılmasının tətbiqi daha da genişlənir.

**Ə.Nuriyevin sözlərinə görə, qanunvericiliyə dəyişikliyin olunması Milli Məclisdə müzakirə olunur. Qanunvericiliyə dəyişiklik olunarsa, şərti azadlığa buraxılacaq məhbusların sayı daha da artacaq: "Bu, ölkə başçısının humanist addımının nəticəsidir ki, belə çətin vəziyyətdə bir çox məhkum ailələrinin yanında olsun".**

*Günel CƏLİLOVA*

# Azərbaycanın koronavirusla mübarizəsi beynəlxalq təcrübə modeli kimi rəsmən qəbul olundu

**Koronavirusla əlaqədar olaraq Qazaxıstan rəsmən Azərbaycanın icazə sisteminin tətbiq edilməsinə qərar verdi. Belə ki, Qazaxıstan Respublikasının Türküstan vilayəti Azərbaycanın "Xüsusi Karantin Rejimində İcazələrin Alınması və Monitorinqi Sistemi" təcrübəsi əsasında vətəndaşlarının hərəkəti üçün onlayn qeydiyyat sistemini hazırlayıb.**




*Aydın Mirzəzadə: "Ölkəmizin tətbiq etdiyi model çox uğurlu şəkildə özünü doğrultduğu üçün, digər ölkələr də buna xüsusi maraq göstərirlər"*

Məlumata görə, yeni sistem vətəndaşlara ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, təxirəsalınmaz tibbi zərurət, eyni zamanda, evlərini tərk edərkən və ya işə gedərkən onlayn qaydada icazə almağa kömək edəcək. Azərbaycanda tətbiq olunan müvafiq sistem barədə Astana Dövlət Xidmətləri Mərkəzinin 42 ölkənin iştirak etdiyi onlayn platformasında məlumat paylaşılıb. Müvafiq platformada Azərbaycan təcrübəsindən başqa, Yunanıstan və Birləşmiş Ərəb Əmirliklərində karantin rejimində tətbiq olunan onlayn sistemlər barədə də məlumat verilib. Qazaxıstanın Türküstan vilayəti isə məhz Azərbaycan təcrübəsi əsasında müvafiq sistemi ərsəyə gətirib.

Bu barədə BMT-nin İnkişaf Proqramının Astana Dövlət Xidməti Mərkəzi (Astana Civil Service Hub) veb-səhifəsində və Qazaxıstanın digər yerli xəbər portallarında məlumat dərc olunub.

Onu da qeyd edək ki, "Xüsusi Karantin Rejimində İcazələrin Alınması və Monitorinqi Sistemi" Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzi və Daxili İşlər Nazirliyi tərəfindən ərsəyə gətirilib.

Qazaxıstandan başqa, digər ölkələr də Azərbaycanın icazə sisteminə maraq göstərirlər. Görünən odur ki, Azərbaycanın koronavirusla mübarizə modeli beynəlxalq təcrübə modeli kimi artıq bir sıra ölkələr tərəfindən qəbul olunur. O baxımdan bunun əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

*"...biz bundan sonra belə nümunələrin sayını çox eşidəcəyik"*

Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, Azərbaycanın tətbiq etdiyi model çox uğurlu şəkildə özünü doğrultduğu üçün, digər ölkələr də buna xüsusi maraq göstərirlər: "O baxımdan, Qazaxıstanın belə bir qərar verməsi təsadüfi deyil. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın koronavirusla mübarizəni çox effektiv şəkildə apardığını bildirib. Bunun nəticəsidir ki, hər bir milyon nəfərə düşən koronavirus xəstəsinin sayına görə Azərbaycan çox əlverişli yerlərdədir. Bununla yanaşı, sağalanların sayı sürətlə artır. Ümumdünya statistikasına görə, sağalanların sayı 30 faizdirsə, Azərbaycanda virusa yoluxanların 80 faizi sağalıb. Həmçinin, virusdan ölənlərin sayına görə Azərbaycan daha yaxşı vəziyyətdədir.

Dünyada bu, 10 faizdirsə, Azərbaycanda bu rəqəm 1 faizdən bir az çoxdur. Azərbaycanın vaxtında sərhədləri bağlaması, karantin rejiminin tətbiq edilməsi, əhalinin özünü izolyasiyası üçün müvafiq şəraitin yaradılması və digər tədbirlər öz nəticəsini verdi. Yəni bütün bunların özü onu göstərir ki, Azərbaycan müasir dövlət quruculuğunda qarşısına çıxan məsələlərin həllində novatorluq edir. Eyni zamanda, digər dövlətlərlə bunu bölüşməyə hazırdır. O baxımdan hesab edirəm ki, biz bundan sonra belə nümunələrin sayını çox eşidəcəyik".

**Vidadi ORDAHALLI**

# Başqa ölkələrdən daha bir fərq - Azərbaycanın yuxarı məmurlarından kimsə koronavirusa yoluxmadı...

**Rusiya Federasiyasının baş naziri Mixail Mişustin koronavirusa yoluxduğunu açıqlayıb. Koronavirusa yoluxan Rusiya Federasiyasının baş naziri Mixail Mişustin sonuncu dəfə martın 24-də ölkə prezidenti Vladimir Putinlə şəxsən görüşüb.**




*Rasim Quliyev: "Azərbaycanın yuxarı eşelon məmur kontingenti arasında virusun yayılmaması həmin seqmentdə olan ciddi nizam-intizamla bağlıdır"*

Rusiya KİV-nin məlumatına görə, dövlət başçısı, baş nazir və baş nazirin birinci müavini Andrey Belousov iqtisadi məsələlərə dair iclasda görüşüblər. Daha əvvəl Mişustinin iş yerindəki təmas dairəsi müəyyən edilib. Baş nazirin ofisinə daxil olmaq üçün icazə yalnız protokol işçilərinə və videobağlantının keyfiyyətini yoxlayan mütəxəssislərə verilib. Mixail Mişustin koronavirusa yoluxmasını Rusiya prezidenti Vladimir Putinə videobağlantı vasitəsilə bildirib.

Qeyd edək ki, pandemiya dönəmində dünyanın bir çox ölkələrinin rəhbər şəxsləri arasında koronavirusa yoluxma halları olub. Bunu rəsmən təsdiq də ediblər. Ancaq bu istiqamətdə də Azərbaycanda fərqli bir mənzərə yaranır. İndiyə qədər ölkəmizdə hər hansı bir yüksək vəzifəli şəxsin koronavirusa yoluxması faktına rast gəlinməyib. Bunun səbəbi nə ilə bağlıdır?

Uzun müddət dövlət qulluğunda rəhbər vəzifələrdə çalışmış, "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bəzi ölkələrin yüksək çinli məmurlarının koronavirusa yoluxması ilə bağlı məlumatlar onun da nəzərindən qaçmayıb:"Hətta bəzi ölkələrin səhiyyə nazirləri belə bu virusa yoluxdu. Mənə elə gəlir ki, bunun bir sıra səbəbləri var. İlkin dönəmdə həmin ölkələrin rəsmiləri virusa o qədər də ciddi yanaşmırdılar. Düşünürdülər ki, bunun sürətlə yayılması mümkün deyil. Ancaq unutmaq lazım deyil ki, xəstəlikdən heç kim sığortalanmayıb. Pandemiyanın kütlə arasında yayılması halı ümumi statistikada öz əksini tapır. Ancaq tanınmış şəxslər və məmurlar arasında belə halın olması xüsusi olaraq ayrıca informasiya kimi vurğulanır. Ad çəkmək istəmirəm, ancaq br çox ölkələrdə virus tanınmış insanlar arasında daha geniş yayıldı. Bu hal eyni zamanda cəmiyyət üçün bir siqnal oldu ki, kimsə pandemiyadan sosial statusuna görə sığortalanmayıb. Hesab edirəm ki, Azərbaycanın yuxarı eşelon məmur kontingenti arasında virusun yayılmaması həmin seqmentdə olan ciddi nizam-intizamla bağlıdır.

Bunun digər səbəbi isə ölkəmizin vaxtında pandemiya ilə bağlı tədbirləri görməsi ilə əlaqəlidir. Eyni zamanda, ölkəmizdə aparılan maarifləndirmə işinin yüksək səviyyədə olması da məsələyə təsirsiz ötüşməyib. Bir daha görürük ki, bizim yüksək məmurlarımız arasında da qanuna tabeçilik arzuolunan səviyyədədir. Siz bu müddət ərzində, yəqin ki, ölkə başçısının cəmiyyətdə olan davranışlarına fikir verdiniz. Prezidentin keçirdiyi bütün görüşlərdə, açılışlarda karantinin normaları gözlənirdi. Hətta cənab Prezident bir neçə görüşünü belə videokonfrans formatında etdi. Bizim cəmiyyətin bütün təbəqələri Prezidentin çağırışına qoşuldu və birlik nümayiş etdirə bildi.

Biz bunun işartılarını yaradılan dəstək fonduna köçürülən vəsaitlərdə və əhali arasındakı yardımlaşmada görə bildik. Birlik və qanunlara olan sayğı bu vəziyyəti yaratdı. Ümid edirəm ki, bu virus, nəinki yüksək vəzifəli insanlarımız arasında yayılmayacaq, həm də sadə əhali arasında yayılmasına son qoyulacaq. Bütün bunlara baxmayaraq, biz ehtiyatımızı əldən verməməliyik. Epidemiyaya tam son qoyulması üçün hamılıqla məsuliyyətli olmalıyıq".

**Məhəmmədəli QƏRİBLİ**

# Həbs edilən icra başçısının təəccüblü tərcümeyi-halı var - beləsinin sənədləri Prezidentin masasının üzərinə necə gedir...

**DTX tərəfindən həbs edilərək məhkəmənin qərarı ilə barəsində 4 aylıq həbs qətiimkan tədbiri seçilən 62 yaşlı Mahir Quliyevin təəccüblü tərcümeyi-halı üzə çıxıb. Rayonun icra hakimiyyətinə aid rəsmi saytında qeyd olunur ki, Mahir Quliyev Kəlbəcər rayonunda anadan olub.**



***Qabil Hüseynli:** "Bu cür oğru, quldur təfəkkürlü adamların namizədliyini irəli sürən və onların işinə nəzarət etməli olan şəxslər də məsuliyyətə cəlb edilməlidir"*

2000-ci ildə Bakı şəhərində fəaliyyət göstərən "Naxçıvan" universitetinin İnzibati İdarəetmə ixtisasını bitirib. 1975-1976-cı illərdə Kəlbəcər rayon kolxoz tikinti idarəsində fəhlə, 1976-cı ildə "Yenilik" qəzeti mətbəəsində mürəttib, 1976-1977-ci illərdə Kəlbəcər rayon İstehlak cəmiyyətində satıcı, 1977-1979-cu illərdə həqiqi hərbi xidmətdə olub. 1980-1981-ci illərdə "Azərnəqliyyat" tikinti trestində usta, 1981-2005-ci illərdə "26 Bakı Komissarı" adına rayonun İctimai iaşə idarəsində satıcı, inzibatçı, kafe müdirinin müavini, restoran müdiri, 2005-2006-cı illərdə Səbail bələdiyyəsində sədr müavini, 2006-cı ildən 2011-ci ilədək Astara Rayon İcra Hakimiyyətinin başçısı olub. Bundan sonra isə Biləsuvar rayonuna icra başçısı təyin edilib. Mahir Quliyev mətbuatın diqqətində əsasən ofisiantlıqdan icra başçısı postuna yüksəlməsi ilə qalıb. Bu haqda Mahir Quliyevin vikipediya məlumatında da yazılırdı. Mahir Quliyevin təhsili ilə də bağlı ilginc məlumat var. Məlum olur ki, Mahir Quliyev bu təhsilini 42 yaşında, özü də o qədər də populyar olmayan özəl universitetlərdən birində alıb. Haqlı olaraq ortaya belə bir sual çıxır: bu cür təsadüfi adamların yüksək postlara təqdimatları ölkə başçısının masasının üzərinə necə gəlib çıxır?

Sabiq dövlət müşaviri Qabılı Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə halların baş verməsi olduqca təəccüblüdür:"Prezident böyük bir iş aparır. Son zamanlar həmin iş yeni məzmun və kefiyyətlə zəngilləşib. Bu cür yararsız, vicdansız adamlar ölkə başçısının apardığı siyasətin ruhunu korlayır, orda əyintilər əmələ gətirir. Onun namizədliyinin kimin tərəfindən irəli sürülməsi ilə bağlı nəsə deyə bilmərəm. Özü də uzun müddətdir ki, icra başçısı işləyir. Bu müddət ərzində onun işinə kim və hansı formada nəzarət edib? Axı ölkə başçısı hər bir xırda detala nəzarət edə bilmir. Hesab edirəm ki, bu cür oğru, quldur təfəkkürlü adamların namizədliyini irəli sürən və onların işinə nəzarət etməli olan şəxslər də məsuliyyətə cəlb edilməlidir. Davranılarından, mimikasından, nümayiş olunan kadrlardan görünür ki, həmin adamın işi-gücü xalqın qanını sormaq olub. Sözün həqiqi mənasında quldurdu. Prezident böyük işlər görür, dəfələrlə onlara xəbərdarlıq edir ki, düz işləsinlər.

Bunlar da Prezidentin tövsiyələrinə qulaq asmaq əvəzinə, öz əxlaqlarına uyğun fəaliyyət ortaya qoyurlar. İcra hakimiyyətləri üzərində ciddi nəzarət sistemi həyata keçirilməlidir. Hazırda fəaliyyətdə olan bir çox icra başçıları ilə də bağlı ciddi araşdırmalar aparılmalıdır. Hansını tərpədirsən, altından bu cür "qara" işlər çıxır. Hesab edirəm ki, Prezidentin başladığı bu kurs davam etdirilməlidir. Xalq bu məsələdə ölkə başçısına böyük dəstəyini ifadə edir".

***Məhəmmədəli QƏRİBLİ***

# Milli Məclis bu hakimləri yeni vəzifələrə təyin edəcək...

**Prezident İlham Əliyev Ali Məhkəməyə bir neçə hakim təyin edilməsi barədə Milli Məclisə təqdimat göndərib. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında "Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında" məsələyə baxılması gözlənilir.**

Komitə iclasında, həmçinin, Bakı Apelyasiya Məhkəməsinin hakimləri İsmayıl Xəlilov, Vüqar Həsənov, Zaur Əliyev, Abidin Hüseynovun, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi Aqil Abbasov, hakimlər Çingiz Əsgərov, Bəhram Məmmədli, Bəhman Qəribovun, Gəncə Apellyasiya Məhkəməsinin hakimi İspəndiyar Şəfiyevin Ali Məhkəmənin hakimi təyin edilməsi haqqında məsələ müzakirəyə çıxarılacaq. Xüsusilə də yuxarı instansiya məhkəmələrinin hakimlərinin dəyişdirilməsi istiqamətində atılan addımlar ölkədə aparılan islahatların məhkəmə-hüquq sahəsini də əhatə etdiyinin göstəricisi sayıla bilərmi?

Görünən budur ki, ölkə başçısının yeni dönəm prezidentliyinə başlayarkən verdiyi islahatlar vədi uğurla həyata keçirilir. Bu struktur və kadr islahatları, deməkolar ki, bütün sahələri əhatə edir. Belə islahatların məhkəmə-hüquq sahəsində aparılmasının zərurəti barədə ölkə başçısı tərəfindən də dəfələrlə fikirlər bildirilib. Prezident İlham Əliyev mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşdə məhkəmə-hüquq sahəsində islahatlara çox ciddi ehtiyac olduğunu demişdi. Məhkəmə-hüquq sistemi üzrə təhlilçilər hesab edir ki, islahatlar hakimlərin müstəqilliyi, peşəkar təlimlər, maaş artımı, ittiham sistemi, prokurorluq-hakim münasibətləri sahələrində olmalıdır. Görünən budur ki, məhkəmə-hüquq islahatları da kompleks anlayışdır. Bu səbəbdən də islahatların effektiv aparılmasının yolları həm qanunvericilik bazasının yenidən formalaşması, həm də yeni hakim korpusunun formalaşmasından keçir. Yüksək məhkəmə instansiyalarına reallaşan hakim təqdimatları artıq islahat prosesinin sürətlə getdiyini şərtləndirir. Məlumdur ki, Azərbaycanda çoxpilləli məhkəmə ierarxiyası mövcuddur. Bu baxımdan da, yüksək məhkəmə insatnsiyalarında daha təcrübəli, qərəzdən uzaq olan hakimlərin təmsilçiliyi zəruridir ki, onlar aşağılarda buraxılan hakim səhvlərini düzəldə bilsinlər. Bunun da nəticəsində hüququn aliliyi təmin edilmiş olur. Bir neçə gün əvvəl Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında Prezidentin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunmuş Cinayət və İnzibati Xətalar məcəllələrinə təklif olunan dəyişikliklərlə bağlı ictimai müzakirələr keçirilib. Qeyd edilib ki, bu dəyişikliklər "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanının icrası ilə əlaqədardır, ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə hazırlanıb. Dəyişikliklər birinci və ikinci oxunuşda Milli Məclisin iclasında ətraflı müzakirə olunub, deputatlar dəyişikliklərin mahiyyəti barədə fikirlərini bildiriblər. Artıq Cinayət və İnzibati Xətalar məcəllələrinə dəyişiklik edilməsi haqqında qanun layihələri ilə bağlı ictimai müzakirələrin başa çatdığı bildirilir. Görülən bu kompleks tədbirlər, qəbul edilən qərarlar ölkəmizdəki islahatların məhkəmə-hüquq sistemində də inamla aparıldığına dəlalət edir. Yeni hakimlərlə bağlı aparılan müzakirələrdən görünür ki, onları gənclərdən ibarət hakim korpusunun təmsilçiləri sayırlar və təqdim olunanlar müsbət reputasiyalı hüquqşunaslar kimi xarakterizə olunur.



***Məhəmmədəli QƏRİBLİ***

**Çinin Hubey əyalətinin Uhan şəhərində ortaya çıxan yeni tip koronavirus gündəmin əsas mövzusudur. Dünya ölkələri koronavirusdan qorunmaq üçün müxtəlif növ karantin həyata keçirirlər. Məlumat üçün bildirək ki, martın 23-də Nazirlər Kabinetinin xüsusi toplantısından sonra "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanunun 25-ci maddəsinə əsasən, Azərbaycanda martın 24-dən mayın 4-dək xüsusi karantin rejimi elan olunub.**

*”Azərbaycanda xəstəlik daşıyıcılarına xüsusi diqqət və qayğı göstərilir”*

# Başqa bəzi ölkələr 65-dən yuxarı yaşlı xəstələri müalicə etməkdən yayınır, Azərbaycanda 92 yaşlı virus xəstəsi sağaldılır

***Aytəkin Kamranqzı:** ”Bir sıra xarici ölkələrdə ağır dərəcəli xəstələr xəstəxanaya yerləşdirilmir”*



Eləcə də koronavirus pandemiyasının bir sıra ölkələrdə sürətlə yayılması karantin rejiminə keçidi daha da sürətləndirib. Bununla belə, əksər ölkədə, o cümlədən, pandemiyanın tüğyan etdiyi dövlətlərdə əhalinin karantin rejiminə etinasızlığı koronavirusa yoluxma və ölüm hallarının kəskin artmasına səbəb olub.

Qeyd edək ki, koronavirusdan ölənlərin sayına görə ön sırada olan əksər xarici ölkədə fövqəladə vəziyyət elan edilib. Xəstələri xəstəxanada yerləşdirə bilməyən İtaliyada virus daşıyıcıları küçələrdə qalıblar. Onu da qeyd edək ki, bir sıra ölkələrdə hökumət sağalması tez mümkün olan xəstələri xəstəxanaya yerləşdirir. Ağır vəziyyətdə olanların, həmçinin, 65 yaşdan yuxarı olan şəxslərin taleyi isə sual altında qalır. Bu kimi hallar bir neçə xarici ölkədə yaşanır. Ancaq Azərbaycanda isə adıçəkilən xəstəlikdən əziyyət çəkənlər müasir standartlara cavab verən xəstəxanalarda müalicə alırlar. Ölkəmizdə xəstəliyin dərəcəsinə, xəstənin yaşına baxmadan onun sağalması üçün hər bir iş görülür. Nümunə kimi 92 yaşlı xəstənin koronavirusa qalib gəlməsini deyə bilərik. Lənkəranda 90 yaşını keçmiş nənə koronavirusa qalib gəlib. Hazırda evinə buraxılan yaşlı qadın həkimlərin ona xidmət göstərməsindən xeyli razı qalıb. Aprel ayının ilk günlərində koronavirusa yoluxmuş Lənkəranın Boladı kəndində yaşayan 92 yaşlı Ağabəyim Axundovada ilk olaraq güclü öskürmələr başlayıb. Həkimə müraciət edəndə isə analizlərdən sonra koronavirusa yoluxduğu məlum olub. Həkimlərin ciddi qayğısı nəticəsində Ağabəyim nənə COVID-19-dan sağalaraq evə buraxılıb.

Beləliklə, Azərbaycan bir daha dünyaya göstərdi ki, yaşından asılı olmayaraq, bütün xəstələrə qayğı ilə yanaşılır. Onların qısa müddətdə sağalması üçün hər bir iş görülür.

Sosioloq Aytəkin Kamranqızı bildirdi ki, koronavirusla bağlı dövlət tərəfindən məhdudiyyətlərin qoyulması xüsusi əhəmiyyət daşıyır: "Azərbaycanda xəstəlik daşıyıcılarına xüsusi diqqət və qayğı göstərilir. Onların qısa müddətdə sağalması üçün hökumət lazımi işlər görür. Ancaq bir sıra xarici ölkələr nəinki xəstələri müalicə etmir, onların xəstəxanada yerləşdirilməsinə önəm vermirlər".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, 92 yaşlı qadının koronavirusa qalib gəlməsi ölkəmizin uğurudur. Bir sıra xarici ölkələrdə ağır dərəcəli xəstələr xəstəxanaya yerləşdirilmir, yaşlı xəstələr risq qrupuna aid olunduğu üçün, onlara diqqət edilmir. Ancaq ölkəmizdə yaşından və xəstəliyin dərəcəsindən asılı olmayaraq, xəstələrə xüsusi münasibət bəslənir.**

*Günel CƏLİLOVA*

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin məlumatına görə, koronavirus infeksiyasının respublika ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə Prezident İlham Əliyevin tapşırığı ilə yaradılmış Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən elan edilən xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması, həmin dövrdə işləməyən şəxslərə və aztəminatlı ailələrə ayrılmış ərzaq yardımlarının paylanmasında yol verilmiş neqativ hallara qarşı prokurorluq orqanları tərəfindən qanunamüvafiq tədbirlər davam etdirilir.**

# Dörd rayonun icra başçılarının inzibati ərazi nümayəndəliklərinin vəzifəli şəxsləri barəsində cinayət işi başlandı



Masallı, Quba, Cəlilabad və Zərdab rayon İcra Hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin bəzi vəzifəli şəxslərinin bu qəbildən olan qanunazidd hallara yol vermələri barədə yerli icra hakimiyyətlərindən rayon prokurorluqlarına daxil olmuş müraciətlərə baxılıb.

Araşdırmalarla Masallı rayon İcra Hakimiyyəti başçısının Ərkivan qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi İsrail Tağıyevin vəzifə saxtakarlığı edərək aprelin 1-dən 29-dək olan müddətdə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən 74 nəfərə qanunsuz arayışlar verməsinə şübhələr üçün əsaslar müəyyən olunub.

Eləcə də, Quba rayon İcra Hakimiyyəti başçısının Vladimirovka kənd İnzibati ərazi dairəsi üzrə nümayəndəsi İslam Abayevin vəzifə saxtakarlığı edərək ayrı-ayrı şəxslərə Qusar rayonuna getmələrinə dair qanunsuz arayışlar verməsinə şübhələr müəyyən edilib.

Bundan başqa, Cəlilabad rayon İcra Hakimiyyəti başçısının Şiləvəngə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Bağır Şirəliyevin vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Heydər Əliyev Fondu tərəfindən aprelin 23-də imkansız ailələrə göndərilmiş ərzaq yardımının paylanması zamanı neqativ hallara yol verərək ərzaq paylarını özünün və müavini Rəşad Seyfullayevin yaxın qohumlarına, o cümlədən kəndin imkanlı şəxslərinə paylamasına dair əsaslı şübhələr müəyyən olunub.

Zərdab rayon İcra Hakimiyyəti başçısının Məmmədqasımlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Mətaf Mikayılov tərəfindən də qanun pozuntusuna yol verilib. Belə ki, M.Mikayılovun vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Heydər Əliyev Fondu tərəfindən aprelin 23-də göndərilmiş ərzaq yardımını imkansız ailələrə deyil yaxın qohumları və kəndin imkanlı şəxslərinə paylamasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunan şəxslər müvafiq rayon İcra hakimiyyəti başçılarının əmrləri ilə tutduqları vəzifədən azad ediliblər.

Toplanmış materiallar üzrə Masallı, Quba, Cəlilabad və Zərdab rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işləri başlanıb.

Hazırda həmin işlər üzrə təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək "961" nömrəli "Çağrı Mərkəzi"nə məlumat vermələrini xahiş edir.

**Dağlıq Qarabağdakı separatçı qurumun "xarici işlər nazirliyi" adından "Halqa" əməliyyatının 29-cu ildönümü ilə bağlı bəyanat yayılıb. Bəyanatda deyilir ki, güya Azərbaycan həmin vaxt Dağlıq Qarabağdan erməniləri tam qovmaq üçün mülki əhaliyə qarşı həmin əməliyyatı keçirib.**

# Ermənilər Qarabağ problemi tarixində yeni saxta səhifə tapıblar - "Koltso" əməliyyatı(?)

İddia olunur ki, məhz həmin əməliyyatdan sonra Dağlıq Qarabağ münaqişəsi hərbi müstəviyə keçmiş oldu. Bəs əslində o zaman nələr baş verib? Araşdırmalarımız göstərir ki, ermənilərin bu iddialarının heç bir hüquqi əsası yoxdur. Həmin vaxt Azərbaycan müstəqil olmayıb. Həm Ermənistan, həm də Azərbaycan SSRİ-nin tərkibində olan respublikalar idi. 1991-ci il aprelin 30-da SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Azərbaycan SSR-in Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəi (OMON) və ordu hissələri ermənilərin qanunsuz silahlı birləşmələrinə və terrorçulara qarşı "Halqa" əməliyyatına başlayıb. Əməliyyat keçmiş Şaumyan və Qasım İsmayılov rayonları (indiki Goranboy), Göygöl və keçmiş Ağdərə rayonlarının ərazisində azərbaycanlılara basqın edən, onları öldürüb, girov götürən, həmçinin, qonşu regionlar arasında nəqliyyat əlaqələrinə maneçilik törədən erməni terrorçularına qarşı idi. Əməliyyata daxili işlər naziri, mərhum Məhəmməd Əsədov şəxsən başçılıq edirdi. 1991-ci il aprelin 30-da "Halqa" əməliyyatının başlandığı gün keçmiş Şaumyan rayonunun Getaşen (indiki Çaykənd) kəndinə və Martunaşen (indiki Qarabulaq) daxil olan Daxili Qoşunlar və OMON dəstələri erməni silahlılarının müqaviməti ilə üzləşmişdi. Döyüşlərdə SSRİ Daxili Qoşunlarının Bakı alayının komandiri, polkovnik Maşkov əsir götürülmüşdü. Kəndin dinc sakinlərinin arxasında gizlənən silahlılara qarşı mübarizə çətinlik törətsə də, may ayı ərzində əməliyyat uğurla yerinə yetirildi. Mayın 6-da isə Ermənistandan Çaykəndə döyüşməyə gedən silahlı dəstənin 14 üzvü öldürülmüş, 10 nəfər isə əsir götürülmüşdü.

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunu Ermənistan və qondarma qurumun təbliğat maşınının növbəti uydurması adlandırmaq olar: "Həmin vaxt əməliyyat olub, ancaq ermənilərin təsvir etdiyi şəkildə yox. Son günlər Azərbaycana qarşı qarayaxma kampaniyasının davam etməsi təsadüfi deyil. Bununla Ermənistan diqqəti artıq beynəlxalq qurumların dirəniş göstərdiyi danışıqlar prosesindən başqa istiqamətə yönəltmək istəyir. Saxta qurumun adından yayılan bəyanatda 1991-ci ildə keçirilən əməliyyatda SSRİ və Azərbaycan dövlətlərinin adı çəkilir. Həmin vaxt mülki əhaliyə qarşı yox, terrorçu qruplaşmalara qarşı əməliyyat keçirilib.

***Hatəm Cabbarlı:** "Ermənilərin belə yalanları sürətli şəkildə tirajlaması münaqişənin sülh yolu ilə həlli istiqamətində atılan addımları heçə endirmək məqsədi güdür"*



Həmin vaxt Azərbaycan müstəqil dövlət olmayıb, keçirilən həmin əməliyyatdan SSRİ rəhbərliyinin məlumatı olub. 1988-ci ildən başlayaraq, ermənilər Dağlıq Qarabağda və ona yaxın ərazilərdə öz terrorçuluq fəaliyyətlərini genişləndirirdilər. 1991-ci ilə qədər onlar Dağlıq Qarabağda separatçılığın əsasını tam qoymuşdular. Müxtəlif terror aktları vasitəsilə onlar azərbaycanlı mülki əhalini qətlə yetirmişdilər. 1991-ci ilin yanvarında Laçın-Şuşa yolunda onlar jurnalist Salatın Əsgərova və iki hərbçini qətlə yetirmişdilər. "Halqa" əməliyyatı isə ermənilərin davam edən terrorçuluq hərəkətlərinə cavab olmuşdu.

Bu baxımdan da qondarma rejimin verdiyi bəyanat hadisələri təhrif edib, öz mahiyyətindən çıxarmaq məqsədini güdür. Ancaq belə yalanlar yeridilə bilməz. Çünki hadisələrin hamısının öz tarixi var. Həmin vaxt ermənilər həm Azərbaycan hakimiyyətinə, həm də SSRİ mərkəzi hakimiyyətinə qarşı çıxırdılar. Bu da cavabsız qala bilməzdi. Bir daha xatırladıram ki, həmin əməliyyatdan heç bir mülki əhali zərər görməyib. Ermənilərin belə yalanları sürətli şəkildə tirajlaması münaqişənin sülh yolu ilə həlli istiqamətində atılan addımları heçə endirmək məqsədi güdür. Onlar hər nə qədər yalanları tirajlamağa çalışsalar da, Azərbaycandan layiqli cavablarını alırlar".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Ermənistandakı hazırkı hökumət hakimiyyətdə qalmağa davam edərsə, həm özünü, həm də ölkəni məhv edəcək. Bu, bütövlükdə, Ermənistanın dövlətçiliyinə təhdiddir. Buna görə Paşinyan və onun komandasının hakimiyyətdən getməsi respublikanın siyasi qüvvələrinin gündəmində olmalıdır.**

# Ermənistan mediası baltanı kökündən vurdu - Paşinyan ölkə üçün total "uğursuzluq mənbəyi" kimi...



Sözügedən fikirlər Ermənistanın "Aysor.am" saytında dərc olunub.

Məqalədə bildirilib ki, Ermənistanda iki il ərzində Paşinyanın ailəsinin və bir qrup dövlət məmurunun rifahının yaxşılaşması istisna olmaqla, ölkənin bütün sahələrində uğursuzluqlar qeydə alınıb: "Uğursuzluqlar hər yerdədir: iqtisadiyyatdan tutmuş, xarici siyasətə, Dağlıq Qarabağ münaqişəsinin həllindən tutmuş, koronavirusla mübarizəyə qədər. Xarici siyasətdəki uğursuzluqlar Rusiya yönündə daha çox gözə çarpır - Sergey Lavrovun verdiyi açıqlamalar, Ermənistan liderinin Ağ Evə girməsinə belə icazə verilmədiyi məqam və Nikolun, ümumiyyətlə, səfərlərinin turist ziyarətlərinə bənzəməsi, orta vəzifəli şəxslərlə görüşü bunları təsdiqləyir. Qarabağ məsələsi barədə danışmağa isə ehtiyac qalmır, çünki danışıqlar masasında sənədin olması səbəbindən Paşinyanın böyük yalanı üzə çıxdı. Əslində, Nikol Paşinyan gizli danışıqlar zamanı Dağlıq Qarabağ məsələsində güzəştə (İşğal altında olan Qarabağdan Ermənistan qoşunlarının geri çəkilməsi nəzərdə tutulur - red.) getməyə razılıq verib".

*__Əli Orucov:__ "Paşinyanın populist xarakterli vədləri getdikcə erməni cəmiyyətində əks effekt verir"*

Belə məlum olur ki, Paşinyan baş nazir olandan sonra, demək olar, heç bir sahədə uğur əldə edilməyib. Ötən iki ildə, praktiki olaraq, heç bir nailiyyətdən söhbət gedə bilmz. Bu isə onun uğursuz və səriştəsiz dövlət başçısı olduğunu göstərir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun fikrincə, artıq Ermənistanda Paşinyanın populist vədlərinə heç kəs inanmır: "Nikol Paşinyanın populist xarakterli vədləri getdikcə erməni cəmiyyətində əks effekt verir. Bu, eyni zamanda, onun siyasi iflasını və ifşasını daha da sürətləndirir. Erməni baş nazirinin dövləti idarəetmə təcrübəsi olmadığından, səhvləri sıralamaqda davam edir. Onun fəaliyyəti Ermənistanı daha ağır duruma salmaqdadır. Moskva ilə arada yaranan soyuqluq, Qərbin ona etibar etməməsi Paşinyanın manevr imkanlarına, faktiki olaraq, zərbə endirib. Ona qarşı daxili etirazlar getdikcə daha kütləvi və kəskin xarakter almaqdadır. Hətta diplomatlar belə, Paşinyana etimad göstərmirlər. Paşinyan düz iki ildir ölkəyə rəhbərlik edir, amma ölkənin heç bir problemini həll edə bilməyib.

*"O, düz iki ildir ölkəyə rəhbərlik edir, amma ölkənin heç bir problemini həll edə bilməyib"*

Ancaq onun baş nazir vəzifəsində qalması Azərbaycana sərf edir. Çünki zəif, iradəsiz və nüfuzu olmayan, hökuməti idarə edə bilməyən baş nazir düşmən dövləti nə qədər zəiflətsə, bu bizə o qədər uyğundur. Onsuz da Ermənistan dünyada nüfuzunu itirməkdədir.

Ermənistanın tənəzzül prosesi Paşinyanın sayəsində bundan sonra da davam edəcək. Paşinyan baxmayaraq ki, Dağlıq Qarabağla bağlı publikaya yönəlik pafoslu fikirlər səsləndirir, amma əməli bunun əksidir. Çünki o, bütün mənalarda, uğursuz siyasətçidir. Ötən iki il bunu bir daha sübut etdi".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın Qarabağ ümidləri tam qırılır - Kreml İrəvana konkret mesajlar verməyə başladı

**İşğalçı Ermənistanda Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranan son vəziyyətlə bağlı Azərbaycanın bu prosesdə artıq qələbə çalması ilə bağlı fikirlər yayılmağa başlayıb. Hesab edilir ki, yaxın tezlikdə işğal altındakı ərazilərin Azərbaycana qaytarılması prosesinə start veriləcək. Elə erməni siyasi analitik Akop Badalyan da bunun qaçılmaz olduğunu bildirir.**

Badalyan qeyd edir ki, Azərbaycan tərəfi burada ustalıqla gedişlər edərək Rusiya faktorunu uğurla neytrallaşdırıb:"Hətta Moskva bu gün açıq şəkildə Azərbaycanpərəst bir mövqe sərgiləyir. Ermənistana münasibətdə isə vəziyyət bunun əksidir. Rusiya xarici işlər naziri Sergey Lavrovun Qarabağ münaqişəsinin tənzimlənməsi və Ermənistandakı erməni-rus problemləri ilə bağlı açıqlamalarından sonra baş nazirlə "böyük sahib" sayılan Kreml arasındakı toqquşmalar və daxili siyasi qarşıdurmalar kəskinləşməyə başladı. Ermənistanın siyasi həyatındakı bu gözlənilməz gərginlik Lavrovun açıqlamaları ilə üst-üstə düşür". Badalyan onu da qeyd edib ki, əslində rusiyalı nazirin açıqlamaları Ermənistanda daxili siyasi gərginlik və iş qarşıdurmanı daha da artırdı:"Lavrovun bu açıqlamalarının əsas hədəfinin bu olduğunu demək çətindir, amma daxildə siyasi gərginliyin bundan sonra artması da göz önündədir. Eyni zamanda, Rusiyanın bu təzyiqlərinə qarşı Ermənistanın "immunitet sistemi"nin işləyib-işləməməsi ilə bağlı sual ortaya çıxa bilər ki, bu da kəskinləşmədə özünü göstərir. Baş verənlərdən bu qənaətə gəlmək olar ki, Ermənistanın institusional bir immunitet sisteminə ehtiyacı var. Amma Ermənistanın immun müdafiəsinin institusional səviyyəsinə nə vaxt keçəcəyi hələ məlum deyil. Kəskinləşmə ilə Lavrovun ifadələri arasındakı əlaqəyə gəlincə, pandemiyanı da nəzərə alsaq, Ermənistan həm ənənəvi, həm də yeni problemlərlə üzləşir. Rusiya bu mənada "universal" təhdid mənbəyidir və burada Lavrov amili, əlbəttə, diqqət çəkir.

Bütün problem ondadır ki, hakimiyyət məsələsində Rusiya özü də güclü daxili və xarici təzyiq altında qalmaqdadır. Böyük ehtimalla, Lavrovun bu açıqlaması bu nöqteyi-nəzərdən Rusiyanın Ermənistanı itirə biləcəyi narahatlığından irəli gəlir. Onun bu narahatlığı istər pandemiyanın, istərsə də Ermənistanın yeni hakimiyyətinin yaratdığı narahtlıqlara əsaslanır. Dünyada yeni geosiyasi mənzərənin yaranması Moskvada təkcə Ermənistanla yox, ümumən Qafqazla bağlı ciddi təşvişlərə səbəb olur". Badalyan Rusiyanın Ermənistanın əlindən çıxması ilə razılaşmaq istəmədiyini bildirib:"Rusiya Ermənistanın taleyini mərcə qoyub. Bəs, Rusiya bundan qazanclı çıxa biləcəkmi? Bu oyunlara davam edəcəksə, o zaman "böyük və güclü rus"un boynunu bükməyə yaxın olan Azərbaycanın qələbəsinə Ermənistan da hazır olmalıdır". Ermənistan parlamentinin keçmiş deputatı Ruben Hakobyan da qeyd edir ki, Bakı Kreml üçün indi olduqca vacib tərəfdaşa çevrilib:"Rusiya-Azərbaycan münasibətləri hazırda Ermənistan-Rusiya münasibətlərindən daha çox stratejidir". Erməni siyasi xadim bu münasibətləri təhlükəli olaraq qiymətləndirib:"Qeyd etmək lazımdır ki, buna böyük ölçüdə məhz Ermənistan baş naziri Nikol Paşinyan töhfə verib".

Rusiyada fəaliyyət göstərən "Qafqaz" geosiyasi klubunun direktoru Nikolay Banin isə hesab edir ki, erməni tərəfinin narahatlığı heç də əbəs deyil. O, Ermənistanın getdikcə daha çətin vəziyyətə düşdüyünü bildirir:"Aydındır ki, Rusiya xarici işlər naziri Lavrovun bəyanatı İrəvanda qeyri-müəyyən vəziyyət yaradıb".

Banin qeyd edib ki, bu ilk növbədə tələskənliyi açıq şəkildə ortaya qoyub və Ermənistan xarici işlər nazirinin son mətbuat konfransı bu tələskənliklə təşkil olunub:"Bununla birlikdə aydındır ki, onun çıxışı cavablar səslənməsindən daha çox suallar yaratdı. Baş nazir Nikol Paşinyan bunlara cavab verməlidir, çünki Qarabağ münaqişəsində dönüş nöqtəsi əldə etmək və həmçinin münaqişənin həll prosesini şəffaflığın yeni səviyyəsinə çatdırmaq haqqında ucadan səslənən bəyanatlar 2018-ci ildə onun hakimiyyətə gəlməsinin heç də az önəmli olmayan elementlərindən idi. Gördüyümüz kimi, nə birini, nə də digərini həyata keçirməyiblər. Bu səbəbdən Ermənistana Qarabağ təzyiqləri artır. İrəvanın geri çəkilməyə yolu qalmayıb". Digər tərəfdən, Nikol Paşinyan ölkə əhalisinə boyun olduğu firavan həyatı da yarada bilmir. Bunun başlıca səbəbi, dəfələrlə deyildiyi kimi, Rusiya amilidir. Ermənistan bütün sahələr üzrə bu ölkədən asılıdır. Bu mənada Rusiya təzyiqi Ermənistan üçün çox şey deməkdir və Qarabağ məsələsində də effekt verə bilər. Elə Azərbaycan üçün bu fonda maraq doğuran əsas məqam da maraqlı qüvvələrin, o cümlədən Rusiyanın Qarabağ məsələsinə obyektiv yanaşma sərgiləyib onun həllinin tezləşməsinə töhfə verməsidir. Hazırda böyük dövlətlər, eləcə də Minsk Qrupuna həmsədrlik edənlər konfliktə bağlı status-kvonun dəyişməsinin vacib olduğunu bildirir. Burada son dövrlərdə Moskvanın fəallaşması isə irəvan üçün daha böyük problem sayılır. Qeyd edək ki, bundan əvvəl də əksər erməni politoloqlar tərəfindən Rusiyanın Qarabağ məsələsində Ermənistana təzyiqlərini artırması barədə çoxsaylı fikirlər səsləndirilib. Məsələn, onlardan biri olan politoloq Stepan Qriqoryan bildirir ki, Dağlıq Qarabağ münaqişəsinin həllində güzəştə getməsi üçün Ermənistana təzyiqlər var. Onun sözlərinə görə, Rusiya regional məsələlərdə Azərbaycanın dəstəyini əldə etmək üçün Ermənistanın Qarabağdan çıxmasını istəyir:"Bunun hansı formada baş verəcəyini, bir neçə rayon, yaxud ümumiyyətlə bütün ərazilərin verilməli olduğunu deyə bilmərik. Amma bütün hallarda, hətta xırda güzəşt də Qarabağın əldən çıxması deməkdir. İndi Ermənistan zəif tərəfdir və burada bütün sahələrə - iqtisadiyyata, sənayeyə, energetikaya, təhlükəsizliyə Rusiya nəzarət edir. Rusiya bilir ki, bizə qarşı ciddi təsir imkanları var". Beləliklə, qeyd edilənlərdən aydın görünür ki, Rusiyanın indiki siyasəti Ermənistanın maraqları ilə ziddiyyət təşkil edir. Hesab edilir ki, Moskva Qarabağ məsələsində bir qədər də aktiv fəaliyyətə keçsə, Ermənistan nəhayət Qarabağ məsələsində konstruktiv mövqe sərgiləyə bilər. Çünki İrəvan Moskvaya hansısa ciddi müqavimət göstərmək imkanında deyil.

Ermənistanın Xristian-Demokrat Partiyasının lideri Levon Şirinyan isə hesab edir ki, Kreml indiki halda həm də Nikol Paşinyana dərs verməyi düşünür:"Kreml hələ də Ermənistandakı hakimiyyət dəyişikliyini həzm edə bilmir". Şirinyanın Sergey Lavrovun Azərbaycanın işğal edilmiş bölgələrinin azad edilməsi ilə bağlı son çağırışı və əvvəllər Ermənistan hakimiyyəti əleyhinə səsləndirdiyi fikirlərə münasibəti isə belə olub: "Ermənistandakı hakimiyyət dəyişikliyini həzm edə bilmirlər. Çünki həmişə Rusiyada deyirlər ki, baxın, onlar üçün nə etmişik. Amma fakt budur ki, Ermənistan xalqı dəyişikliyə getdi və ruslar bunu qəbul etmirlər. Seçimlərimizlə barışmalı və bizimlə ortaq olmalı, vassal münasibətləri qurmamalıdırlar. Vassallıq Serj Sarkisyanın öz gücünü itirməsi ilə öldü. Rusiya artıq Ermənistanın onun vassalı olmadığı faktı ilə barışmalıdır. Ermənistan son 300 ildə ilk dəfə bərabər münasibətlər üçün ərizə təqdim etdi və bu onlar üçün qeyri-adi haldır. Bu səbəbdən Lavrov son açıqlamasında Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılmasının vacibliyindən danışıb. Bundan əvvəl isə Sergey Lavrov Nikol Paşinyan hökumətini həbsdə olan sabiq prezident Robert Köçəryanı azad etməyə çağırmışdı. Rəsmi İrəvan onun bu tələbini Ermənistanın daxili işlərinə qarışmaq cəhdi kimi dəyərləndirərək qəbul etməyib. Rusiya bunu da unutmur və Kremlin təzyiqlərinin daha da artması gözlənilir". Yeri gəlmişkən xatırladaq ki, bir neçə gün əvvəl Ermənistanın ikinci prezidenti Robert Köçəryanın ofisinin rəhbəri Viktor Soqomonyan verdiyi müsahibədə Köçəryanın məhkəməsinin Moskva üçün böyük əhəmiyyət kəsb etdiyinə görə Ermənistan-Rusiya münasibətlərinə mənfi təsir göstərəcəyini bildirmişdi. Bu fonda da Kremlin İrəvana təzyiqləri artırmaqda davam etməsi gözlənilir. Amma əsas təzyiqin indiki halda Qarabağ məsələsi üzərindən olması proqnozlaşdırılır. Rusiya İctimai Siyasi Araşdırmalar Mərkəzinin direktoru Vladimir Yevseyev isə hesab edir ki, Moskva həm də Ermənistanın tərs mövqeyi üzündən Qarabağda hərbi əməliyyatların yenilənməsini istəmir:"Bunun mühüm səbəbləri var. Çünki Dağlıq Qarabağ müharibəsi başlasa, Türkiyə və Rusiya kimi oyunçular da bura cəlb ediləcək. Moskva isə bunu istəmir.

Xüsusən də Azərbaycan və Türkiyə ilə münasibətlərinin yüksək səviyyədə olduğu bir vaxtda. Bu mənada, Kreml danışıqlar yolu ilə münaqişənin gedişində dəyişikliklər olmasında maraqlıdır. Bu dəyişikliklərin yolu isə Ermənistana təzyiqlərin artırılmasından keçir. İndiki halda belə qənaətə gəlmək olar ki, Ermənistana təzyiq etməyəcəklərsə, əlbəttə ki, Azərbaycanın əl-qolu açıq olacaq. Çünki Azərbaycan öz torpaqlarının işğaldan azad edilməsinə nail olmaq istəyir və bunu heç vaxt gündəmdən çıxarmayıb".

Hər halda, görünən həm də budur ki, artıq Kreml də İrəvana lazımı mesajlar verir. Sadəcə, indi erməni tərəfinin bundan lazımı nəticə çıxarması olduqca mühümdür. Əks təqdirdə məsələnin hərb yolu ilə çözümünü tapması qaçılmaz sayılır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Koronavirus və aşağı iqtisadi fəallıq şəraitində Azərbaycanda sığorta əməliyyatları artıb - maraqlı prosesin kökü...

**Bu ilin yanvar-mart aylarında Azərbaycanın sığorta bazarında sığorta haqlarının yığımları 20 faizə yaxın artıb. Belə ki, yanvar-mart aylarında ölkənin sığorta şirkətləri 240 milyon 764 min manat sığorta haqqı toplayıb, 77 milyon 064 min manat sığorta ödənişi ediblər.**

## *"...mart ayında daha çox sığorta ödənişi..."*

Ötən ilin eyni dövrü ilə müqayisədə sığorta yığımları 19,7 faiz, ödənişlər isə 66,7 faiz artıb.

Rəsmi statistikaya əsasən, koronavirusun təsirinin hiss olunduğu mart ayında sığorta yığımları yanvar-fevralla müqayisədə azalıb. Məlum olub ki, yanvarda 112 milyon manat, fevralda isə 78,7 milyon manat sığorta haqqı toplandığı halda, martda yığımlar 50 milyon manat təşkil edib. 2020-ci ildə mart ayının yığımları ötən ilin martı ilə müqayisədə 26,8 faiz azalıb.

Ancaq maraqlıdır ki, koronavirus səbəbindən karantin tədbirlərinin görülməsinə və hərəkətin məhdudlaşdırılmasına baxmayaraq, mart ayında sığorta hadisələri və ödənişləri kəskin artıb. Ötən ay sığorta ödənişləri 27,8 milyon manat təşkil edib, bu da ötən ilin mart ayı ilə müqayisədə 2,1 dəfə artıqdır.

Karantin dövründə aşağı iqtisadi fəallığın olması fonunda sığorta hadisələrinin və ödənişlərin belə kəskin artması nə ilə bağlı ola bilər?

Sözügedən məsələyə aydınlıq gətirən sığorta sahəsi üzrə ekspert İlkin İbrahimov bunu bir sıra amillərlə əlaqələndirdi: "Mərkəsi Bank bu ilin son üç ayının statistikasını təhlil edib. Məlum olur ki, yığımlar və ödənişlər artıb. Sığorta yığımlarının artmasına səbəb ötən il daşınmaz əmlakın sığortası ilə bağlı yaşanan ajiotaj idi. Məsələ ondadır ki, baş verən yanğınlardan sonra vətəndaşlar kütləvi şəkildə sığorta şirkətlərinə müraciət etməyə başladılar. Ona görə də bu ilin yanvar ayında daha çox sığorta yığımı qeydə alındı. Belə ki, 112 milyon manat sığorta haqqı toplandı. Fevralda isə isə bu 78,7 milyon manata düşdü. Martda isə bu rəqəm 50

## **İlkin İbrahimov:** *"Hansısa sənədlərin çatışmaması üzündən ödənişlər növbəti aylara düşür"*




milyon manat oldu. Koronavirus pandemiyası üzündən hesab edirəm ki, yığımlar sonrakı aylarda daha da aşağı düşəcək. Çünki proseslərin gedişi bunu göstərir. Karantin dövründə sığorta hadisələrinin və ödənişlərinin artmasına gəldikdə isə, bu müəyyən səbəblərlə bağlıdır. Məsələ ondadır ki, müəyyən sığorta hadisələri var, onlar araşdırılır. Ya məhkəmə əsasında, ya da sığorta şirkətlərinin özü tərəfindən araşdırma aparılır. Hansısa sənədlərin çatışmaması üzündən ödənişlər növbəti aylara düşür. Bu səbəbdən mart ayında daha çox sığorta ödənişi həyata keçirilib.

**Statistikaya baxanda biz görürük ki, avtomobillərlə bağlı yığımlar artıb. Ancaq yığımların çoxu məhdudiyyətlərdən əvvəlki dövrə düşür. Ona görə də hesab edirəm ki, sığorta ödənişlərinin artması sözügedən səbəblərlə bağlıdır".**

***Vidadi ORDAHALLI***

# BVF-dən Azərbaycan barədə mübahisəli proqnoz - idxal da, ixrac da azalacaq...

**Beynəlxalq Valyuta Fondunun yenilənmiş proqnozuna əsasən, Azərbaycan 2020-ci ildə cari əməliyyatlar hesabının kəsiri ilə üzləşə bilər. Sözügedən bankın proqnozuna əsasən, 2020-ci ildə Azərbaycanın cari əməliyyatlar hesabının kəsiri 2019-cu ildəki 4,4 milyard dollar profisitə qarşı 3,3 milyard dollara çata bilər.**

## *"Hesab edirəm ki, neftin qiyməti bahalaşsa və pandemiya dayansa, iqtisadi göstəricilər fərqli olar"*

Bununla yanaşı, dünyada işgüzar fəallığı, xarici ticarət əməliyyatlarının həcmini və kapital axınını azaldan koronavirus pandemiyası Azərbaycanın tədiyə balansına, onun əsas komponenti olan cari əməliyyatlar hesabına mənfi təsir göstərib. BVF Azərbaycanın ÜDM-ni 2019-cu ildəki 47,3 milyard dollara qarşı 40 milyard dollar səviyyəsində proqnozlaşdırır və cari əməliyyatlar hesabının göstəricisi 2019-cu ildəki ÜDM-ə nisbətdə 9.2% artıma qarşı bu il ÜDM-ə nisbətdə 8.2% azalacaq.

BVF-nin proqnozuna görə, 2020-ci ildə Azərbaycanın mal və xidmət ixracı 2019-cu ildəki 23,6 milyard dollardan 14.4 milyard dollara, idxal isə 17.7 milyard dollardan 15.2 milyard dollara enə bilər. BVF-nin proqnozuna görə, 2020-ci ildə neft ÜDM-i 2,5% azalacaq, halbuki, 2019-cu ildə 0.3% artım olub.

O da məlumdur ki, neftin qiymətinin davamlı olaraq ucuz səviyyədə qalacağını heç kəs proqnozlaşdırmır. Eyni zamanda, koronavirus pandemiyasının da, əvvəlaxır, bir sonu olacaq. Belə olan halda, BVF-nin məlum proqnozları nə dərəcədə əsaslı sayıla bilər?

Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, BVF-nin proqnozlarına yüzdəyüz inanmaq doğru deyil: "Bu o demək deyil ki, iqtisadi göstəricilər məhz deyildiyi kimi olacaq. BVF-nin proqnozları müəyyən iddialara, metodologiyaya əsaslanır. Proqnozlar ən yaxşı və ən pis hal üçün hesablanaraq verilir. Bəli, bizim əsas ixrac məhsulumuz neftdir. Koronavirus səbəbindən neftin dünya bazar qiyməti kəs-

## **Əli Əlirzayev:** *"...bir sıra hallarda onların proqnozları özünü doğrultmur"*



kin ucuzlaşıb. Ucuzlaşma səbəbindən Azərbaycanın valyuta gəlirləri azalıb. Təbii ki, bütün bunlar ümumi iqtisadiyyata öz təsirini göstərir. Ancaq bu o demək deyil ki, neftin qiyməti hər zaman belə ucuz olacaq. Kim zəmanət verir ki, ilin sonuna qədər neft ucuz qalacaq? Ona görə də azalma ilə bağlı BVF-nin proqnozlarına inanmaq doğru deyil. Bunu doqma kimi qəbul etmək olmaz.

Biz bəzi məhsullara olan tələbatı daxili imkanlar hesabına təmin etsək, bu, böyük şeydir. BVF, adətən, müəyyən metodoloji vasitələrlə hesablamalar aparır və bir sıra hallarda onların proqnozları özünü doğrultmur. Nəzərə almaq lazımdır ki, bizim də proqnozlarımız var. Məsələ ondadır ki, bəzi məhsulları xaricdən idxal etmək yox, ölkə daxilində istehsal etmək qarşıya məqsəd qoyulub. Bəzi məhsulların ixracını özümüz də azaldarıq ki, daxili tələbatı ödəyək. Bütün bunlarla yanaşı, hesab edirəm ki, neftin qiyməti bahalaşsa və pandemiya dayansa, iqtisadi göstəricilər fərqli olar".

***Vidadi ORDAHALLI***

# ABŞ-la Çin arasında yeni iqtisadi savaş başlayır - Azərbaycan yenə az itki ilə çıxacaq...

**Dünyanın hələ də bir və iki nömrəli iqtisadiyyatı sayılan ABŞ-la Çin arasında ticarət savaşına yenidən start verilir. Özü də bu dəfə savaşın daha dağıdıcı xarakter alması gözlənilir. Prosesə təkan verən budəfəki başlıca amil isə koronavirusdur.**

Məlumata görə, ABŞ prezidenti Donald Tramp bəyan edib ki, rəsmi Vaşinqton koronavirusla bağlı Çin mallarının idxalına əlavə rüsumlar tətbiq edə bilər.

Ağ Evin liderinə "ABŞ hökuməti koronavirusla bağlı cəza tədbiri kimi Çinə olan borc öhdəliklərini yerinə yetirməkdən imtina edə bilərmi" sualına cavabında Tramp bunun başqa şəkildə edilə biləcəyini qeyd edib:"Daha böyük miqdarda pul qazanmaq üçün əlavə rüsumlar tətbiq edilə bilər".

Onun sözlərinə görə, ABŞ Çinin koronavirusun yayılmasının qarşısını ala bilmədiyinə görə məsuliyyətə cəlb edilməsi üçün fərqli variantları nəzərdən keçirir. Söhbət böyük pullardan gedir:"Almaniya da, biz də variantları tədqiq edirik və biz almanlardan fərqli olaraq daha böyük pullardan danışırıq. Hələlik yekun qərar qəbul etməmişik. Çox ciddi araşdırma aparırıq. Zamanı gələndə sizi məlumatlandıracağıq", Qeyd edək ki, alman mətbuatı da ölkənin Çindən kompensasiya tələb edəcəyini iddia etmiş, məbləğ 165 milyard dollar olaraq açıqlanmışdı. Tramp isə ABŞ-ın Çinə olan 1 trilyon ABŞ dolları həcmində borcunu qaytarmamaqla da hədələyib. Qeyd edək ki, ABŞ hökümətinin borclanmaq üçün buraxdığı borc qiymətli kağızlarının 1 trilyon dolları məhz Çin tərəfindən alınıb və Çin hər il bu qiymətli kağızlara investisiya edir, yəni ABŞ Çin qarşısında borclanır. Ümumiyyətlə, Donald Tramp və dövlət katibi Mayk Pompeo son dövrlərdə dəfələrlə Çini virusun mənşəyi barədə məlumatları gizlətməkdə ittiham edib. Mayk Pompeo Pekini koronavirusun təhlükəli infeksiya xəstəlikləri üzrə tədqiqatların aparıldığı Uhan Virusologiya İnstitutunun laboratoriyasından sızması ehtimalı barədə açıqlama verməyə çağırıb. Tramp isə açıqlamasında, bundan başqa, Çinin onun prezident seçkilərində məğlub olması üçün çalışdığını iddia edib. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Qenq Şuanq isə bildirir ki, Vaşinqton düşmənin Pekin deyil, koronavirus olduğunu anlamalıdır. Bununla belə, İngiltərədə yerləşən "Henry Jackson" beyin mərkəzinin açıqlamasına görə, Çin koronavirus epidemiyasının pandemiyaya çevrilməsinə görə məsuliyyət daşıyır və buna görə kompensasiya ödəməsi qanun çərçivəsindədir. Qurumun hüquq mütəxəssisi Samuel Armstronq koronavirus pandemiyası səbəbilə Çinin məhkəməyə veriləbiləcəyi və ittiham etmək üçün ən çox 10 qanuni yol olduğunu bildirib:"Bu düzəlişlər bir ölkənin Ümumdünya Səhiyyə Təşkilatına bir pandemiya ssenarisini bildirməsini və müəyyən bilgiləri 72 saat ərzində paylaşmasını tələb edir. Çinin bu vəzifəni icra etməməsi qarşı tərəfin şikayətinin təməl qaynağı olacaq". Onun sözlərinə görə, təkcə "Böyük yeddilik" ölkələrinə Çin ən az 4 trilyon dollar kompensasiya ödəməlidir:"Çinin məsuliyyətini qəbul edib sanksiyalara boyun əyməsi üçün bütün dünyanın bu məsələni daha ağrılı vəziyyətə gətirməsi vacibdir. Hər hansı qanuni tələb Çini masaya oturmağa məcbur etmək üçün iqtisadi və təhlükəsizlik vasitələrini istifadə edən dövlətlərin əlinə baxacaq". Stockton Beynəlxalq Hüquq Mərkəzinin müəllimi Ceyms Kraska isə Çinin kompensasiya ödəməsi üçün hər ölkənin öz sanksiyalarını tətbiq edə biləcəyini bildirib. O qeyd edib ki, Çin pandemiya ilə bağlı bilgiləri sadəcə ölkə daxilində yaydığı, beynəlxalq xəbərdarlıq etmədiyi üçün bütün planeti təhlükəyə atıb. Məhz bu durumda qlobal miqyasda yenə ciddi narahatlıq predmetinə çevrilən məqamlardan biri də ABŞ-la Çin arasında kəskinləşən ticarət müharibəsidir. Dünyanın iki ən böyük iqtisadiyyatı arasında baş verənlərin digər ölkələrə təsirsiz ötüşməyəcəyi dəqiqdir. Məsələn, baş verənlər dünyada neftin qiymətinin yenidən kəskin ucuzlaşmasına səbəb ola bilər. Eyni zamanda bir çox ölkələrin milli valyutasında yenidən ucuzlaşma qeydə alınması da istisna deyil. Elə bu fonda baş verənlər Azərbaycanda da diqqətlə izlənir, indidən müvafiq tədbirlər görülür. İndilikdə isə görünən budur ki, qarşıdakı dövr ərzində ABŞ və Çin ticarət müharibəsini daha da qızışdıracaq. Məsələn, Çin öz milli valyutasının məzənnəsinin yenidən aşağı səviyyəyə enməsinə icazə verib. Bu metod Çinin dəfələrlə baş vurduğu və ABŞ-ı çox qıcıqlandıran üsullardan biridir, bu yolla Pekin öz ixracatçılarını stimullaşdırır və ölkədən kapital çıxışını əngəlləyir. Belə vəziyyət dolları ucuzlaşdırmağa hazırlaşan ABŞ üçün əlavə problem yaradır, eyni zamanda valyuta müharibəsini də stimullaşdırır. Digər tərəfdən hesab edilir ki, qarşıdurma ciddi xarakter alarsa, Çin əlində olan və trilyon dollarlarla ölçülən ABŞ qiymətli kağızları vasitəsilə manevr etmək qərarına gəlsə, bunun fəsadlarını bütün dünya iqtisadiyyatı çəkə bilər.

Ekspertlərin fikrincə, ticarət müharibələri dünya miqyasında mal və məhsulların qiymət baxımından bahalaşması ilə nəticələnəcək. Eləcə də, bu fonda ticarət müharibəsi davam edəcəyi təqdirdə, Azərbaycana da idxal edilən məhsulların qiymətlərində artımlar müşahidə edilə bilər. Bu, həm texnologiya, həm avtomobil, həm də digər sənaye məhsulları ola bilər. Amma qlobal ticarət müharibəsi neftin dünya bazarında qiymətinin yeni çöküşünə gətirib çıxararsa, bu halda dünya iqtisadiyyatı yenidən böhran yaşayacaq. Bu durumda neft hasilatçıları, o cümlədən Azərbaycan itkiləri qeyri-neft məhsullarını ixracı hesabına təmin etməli olacaq. Amma bütövlükdə qlobal ticarət müharibəsinin Azərbaycan üçün təhdid istiqamətində ciddi təsirləri olmayacaq. Çünki Azərbaycan iqtisadiyyatını elə formada qurub ki, dünyada baş verən proseslər ona minimal dərəcədə təsir göstərə bilsin. Real vəziyyət bu strategiyanın doğruluğunu təsdiq edir. Yəni enerji məhsullarının qiyməti qalxmasa belə, Azərbaycan yaranmış vəziyyətdə qeyri-neft məhsullarının artan ixracı hesabına yenə ticarət müharibəsindən ən az təsirlənən ölkələrdən biri olacaq. Xatırladaq ki, bundan əvvəlki ticarət və valyuta savaşları da Azərbaycana hansısa ciddi təsir göstərməmişdi. İndilikdə isə, Azərbaycan da daxil olmaqla, dünya ölkələri hesab edir ki, ABŞ və Çin ticarət müharibəsinin genişləndirilməsinə imkan verməmək üçün hər iki tərəfin kompromis axtarışına başlaması yaxın perspektivdə vəziyyətdən çıxışın, daha doğrusu, gərginliyin səngidilməsinin ən optimal yoludur. Amma ABŞ və Çin hələlik bu prosesdən uzaq qaçır.



***Ramil QULİYEV***

**Dünya iqtisadiyyatının üzləşdiyi məlum çətinliklər fonunda nəqliyyat və tranzit yükdaşımaları sahəsində görülən işlər Azərbaycana mühüm üstünlüklər qazandırır. Vəziyyətin təhlili göstərir ki, yaranmış durumda Azərbaycan Avrasiya məkanında yükdaşımalar sahəsində əsas qovşağa çevrilməkdədir.**

# Azərbaycan Yaponiya üçün də əsas tranzit partnyoruna çevrilir

Bu fonda dünyanın iqtisadi cəhətdən ən böyük ölkələrinin yükdaşımalar sahəsində Azərbaycanla genişlənən əməkdaşlığı da təbii hal sayılır. Artıq həmin ölkələr sırasına Yaponiya da qoşulur.

Qeyd edilən fonda "ADY Express"in mətbuat xidmətinin rəhbəri İlham Abdulovun açıqlamalrı xüsusi diqqət cəlb edir. O bildirir ki, Azərbaycanla Yaponiyanın əməkdaşlığı Transsibir nəqliyyat dəhlizi potensialı ilə Bakı-Tiflis-Qars dəmir yolunun sinergiyası çərçivəsində icra olunur. Onun sözlərinə görə, hələ ötən ilin aprelində Çində "Bir kəmər, bir yol" konfransı çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin ikitərəfli görüşü zamanı Bakı-Tiflis-Qars dəmir yolu ilə Transsibir nəqliyyat dəhlizinin potensiallarının sinergiyası müzakirə olunub. Bunun ardınca Azərbaycan və Yaponiya arasında İqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının onuncu iclası çərçivəsində "Azərbaycan Dəmir Yolları", "ADY Express" və "ADY Container"in rəhbərlikləri Yaponiyada 10-dan çox iri logistika şirkəti və yüksalma yerlərinə baş şəkib. Eyni zamanda, azərbaycanlı nümayəndə heyəti Yaponiyanın Torpaq, İnfrastruktur və Nəqliyyat Nazirliyinin və Yaponiya Ekspeditorlar Assosiasiyasının nümayəndələri ilə səmərəli görüşlər keçirib. Danışıqlar Bakı-Tiflis-Qars dəmir yolunun istifadəyə verilməsinə və Azərbaycanın Transsibir Nəqliyyat Koordinasiya Şurasında üzvlüyünə, eləcə də Yaponiya, Rusiya, Azərbaycan, Gürcüstan-Türkiyə-Avropa marşrutu üzrə yük nəqlinə həsr olunub. Bununla bağlı olaraq Asiya-Sakit okean regionundan, eləcə də Yaponiyadan yüklərin Azərbaycanın marşrutları vasitəsilə daşınması üzrə fəaliyyət planı gündəmə gəlib. Bütün bunlar indiki şəraitdə olduqca önəmli sayılır. Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Elşad Məmmədov da bildirir ki, ölkənin tranzit potensialının artırılması, bütövlükdə nəqliyyat sektorunun inkişafı neft bazarındakı enişlər şəraitində olduqca önəmlidir:"Bu baxımdan Azərbaycanın yük daşımaları seqmentinin inkişaf etdirilməsi mühüm amil kimi çıxış edir. İlk növbədə qonşu ölkələrlə, post-sovet ölkələri və Avrasiya məkanı ilə əlaqələrin qurulmasına çalışmalıyıq. Hazırkı deq-loballaşma dövründə regional əməkdaşlıqların inkişaf etdirilməsi zəruridir. Hesab edirəm ki, regiondakı layihələr bir-birinə rəqib kimi deyil, iqtisadi fəallığın qorunması üçün komponent kimi qəbul edilməlidir".



Onu da qeyd edək ki, Bakı-Tiflis-Qars xətti Şərqdən Qərbə və əksinə malların tranziti baxımından "Transsibir" yolunun əhəmiyyətini xeyli artırır. Rusiya Dəmir Yolları İdarəsinin baş direktoru Oleq Belozyorov "Transsibir" dəmir yolu xəttilə Çindən Azərbaycana konteyner tranziti üzrə müntəzəm sistemin yaradılmasını, eləcə də Bakıda müvafiq distribütor mərkəzinin yaradılmasını vacib sayır. Xatırladaq ki, artıq Rusiya ilə Azərbaycan arasında Bakı-Tiflis-Qars dəmir yolunun infrastrukturundan istifadə edilərək, "Şimal-Cənub" dəhlizi, eləcə də Rusiya-Azərbaycan-Türkiyə marşrutu üzrə nəqliyyat axınının artırılmasına dair əməkdaşlıq haqqında memorandum imzalanıb. Maraqlıdır ki, Bakı-Tiflis-Qars dəmir yolu bir vaxtlar Çindən malların qəbulu baxımından "Transsibir" dəmir yolu xəttinə ciddi rəqib kimi qiymətləndirilirdi. Lakin bir müddət sonra Rusiya öz məhsullarını Türkiyə bazarına daha tez ixrac etmək, bu ölkənin Aralıq dənizindəki limanlarına çıxış qazanmaq məqsədilə Bakı-Tiflis-Qars xəttindən istifadə etmək qərarına gəldi. İndi isə bu xüsusda əməkdaşlığın daha da genişləndirilməsi Moskvanın xüsusi diqqət mərkəzində yer alır. Hazırda Rusiya Türkiyəyə taxta və polad məhsullarını əsas etibarı ilə məhz Bakı-Tiflis-Qarsla göndərir. Hər ay Rusiyaya məxsus təxminən 70 min ton metallurgiya məhsulu məhz bu yolla Türkiyəyə göndərilir.

İndi Yaponiyadan gələn yüklərin də Rusiya üzərindən keçməklə Azərbaycan vasitəsilə daşınması aktuallaşır. Artıq Yaponiyanın "JR-Freight Railway", "HİS Corporation", "Yusen Logistics", "Nippon Freight Railway Co", "Nissin Corporation", "Toyo Trans Corporation", "İTOCHİ Cooperation", "JETRO" kimi iri biznes şirkətləri bu prosesdə maraqlı olduqlarını bildirir. Bakı-Tiflis-Qars dəmir yolundan istifadənin artması fonunda Yaponiyadan Türkiyə, Cənubi Avropa və Balkan ölkələri, eyni zamanda Aralıq dənizi hövzəsi ölkələrinə yüklərin nəqli məsələsi bu şirkətlər üçün çox önəmli sayılır. Belə ki, yüklər Yaponiyadan bərələr vasitəsilə Rusiyanın Vladivostok şəhərinə, oradan isə dəmir yolu, Transsibir magistralı ilə Bakı-Tiflis-Qarsa çatdırıla bilər. Yəni Rusiyadan sonra yüklərin Azərbaycana, Gürcüstana və Bakı-Tiflis-Qars dəmiryolu xəttilə Türkiyəyə, buradan Avropaya nəqli indi yaponlar üçün də cəlbedicidir. Qeyd edək ki, Transsibir magistralı ilə daşınan tranzit yüklərin 30 faizi Yaponiyadan nəql olunan yüklərin payına düşür. İndi bu həcmdə yükün Azərbaycan üzərindən də keçməsi gözlənilir. Buradakı təkliflər bir sıra üstünlüklərinə görə Yaponiya biznes dairələri tərəfindən maraqla qarşılanıb.

**Hazırda Vladivostok-Bakı-Avropa marşrutu ilə yüklərin nəqlini 21 günə həyata keçirmək mümkündürsə, Süveyş kanalı vasitəsilə həmin yüklərin daşınması 45 günə mümkündür. Yaxın gələcəkdə magisrtalda sürət artdıqca, "Şimal-Qərb" marşrutu ilə yüklərin nəqlini 17 günə həyata keçirmək mümkün olacaq. Nəzərə alınsa ki, Yaponiya ilə Avropa Birliyi arasında illik yük dövriyyəsi 15 milyon tondan artıqdır, Azərbaycan ərazisindən keçən nəqliyyat marşrutuna həmin yüklərin bir qismini cəlb etmək mümkün olacaq. Bu, indi Yaponiya üçün də çox sərfəlidir.**

***Nahid SALAYEV***

**Məlum olduğu kimi, Azərbaycanda koronavirusa yoluxanların sayı azalma dinamikası ilə davam edir. Gün ərzində sağalanların sayı yoluxanlardan çox olur. Əlbəttə, bütün bu müsbət nəticə cənab Prezidentin zamanında verdiyi tapşırıqların və göstərişlərin sayəsindədir.**



# "Karantindən sonra da kütləvi yas mərasimləri keçirilməsin" - mütəxəssislər vahid mövqeyə gəlir...

## *Adil Qeybulla: "Mayın 4-dən sonra da yas və toy məclislərinin bərpasına icazə verilməməlidir"*

Məhz əldə edilən müsbət nəticəyə görə Operativ Qərargah karantin rejimini yumşaldaraq bəzi iş yerlərinin açılmasına icazə verdi.

Ancaq bu o demək deyil ki, insanlar bundan sevincək olaraq qoyulan qayda və tələbləri pozsunlar. İkinci dalğa gələrək, koronavirusa yoluxanların sayını artıra bilər. Ona görə də Operativ Qərargahın qərar və tapşırıqlarını yerinə yetirməliyik ki, yoluxanların sayı yenidən yüksəlməsin.

Bu səbəbdən də ekspertlər toy və yas mərasimlərinin keçirilməsinə icazə verilməsini hələ tez sayırlar. Nəzərə almaq lazımdır ki, toy və yas mərasimlərində insanlar kütləvi olaraq bir yerə yığışırlar.

Professor, tibbi ekspert Adil Qeybulla qeyd etdi ki, strukturunda heç bir dəyişiklik edilməyəcəksə, yas mərasimlərinin keçirilməsinə icazə verilməsi virusun ikinci yoluxma dalğasına səbəb olacaq: "Öncə yas mərasimlərində hökm sürən dəbdəbə, bayağılıq kimi mənfi hallar aradan qaldırılmalıdır. Yalnız bundan sonra onun fəaliyyətinə icazə verilməsi məsələsini gündəmə gətirmək olar. Hazırda yas məclislərimiz anormal vəziyyətdədir. Burada həddən artıq dəbdəbə, bayağılıq hökm sürür. Bir-birilə bəhsə gedirlər, onu biznesə çeviriblər. Ona görə də, ilk növbədə, yas məclislərini abıra salmaq lazımdır. Nəzərə alaq ki, postpandemiya dövründə maddi durumumuz elə də ürəkaçan olmayacaq"

Həmsöhbətimiz hesab edir ki, Qafqaz Müsəlmanları İdarəsini bu yöndə tədbirlər görməlidir: "Qurum bu işə əncam çəkməli, yas məclislərinin strukturunu qurmalıdır. Yəni yaranmış fürsətdən istifadə edərək yas məclislərində yaşanan pis ənənələrə son qoymalıyıq. Bu, insanların ürəyincə olar. Yas məclislərini yeyib-içmək məclisinə deyil, hansısa bir rituala çevirmək vaxtı çatıb. Mayın 4-dən sonra da yas və toy məclislərinin bərpasına icazə verilməməlidir, əvvəlki şəkildə davam edəcəksə, hələ tezdir. Strukturunda heç bir dəyişiklik olmayacaqsa, yas mərasimlərinin keçirilməsinə icazə verilməsi virusun ikinci yoluxma dalğasına rəvac verəcək. İkinci yoluxma dalğası isə iqtisadiyyat və sosial həyatımıza ciddi zərbə vuracaq".

> *"Yas mərasimlərinin keçirilməsinə icazə verilməsi virusun ikinci yoluxma dalğasına rəvac verəcək, ikinci yoluxma dalğası isə..."*

***Günel CƏLİLOVA***

---

**Bildiyimiz kimi, Azərbaycanda kifayət qədər müəllim orta məktəblərdə dərs deməklə yanaşı, həm də repetitorluq fəaliyyəti ilə məşğul olur. Ölkəmizdə pandemiya ilə mübarizə çərçivəsində repetitorluq fəaliyyətinə də məhdudiyyət qoyulmuşdu.**

*"Ödəməyənlərə dəstək olunsa idi, bu, digərlərinə qarşı haqsızlıq olardı"*

# Bir qəpik də vergi, sığorta ödəməyən repetitor-müəllimlər də dövlətdən yardım istəyir...

## *Kamran Əsədov: "Bu şəxslərə yardım verilməməsinin əsas səbəbi onların vaxtında vergi ödəyicisi kimi qeydiyyata düşməmələridir"*




Lakin Azərbaycanda xüsusi karantin rejiminin yumşaldılması ilə əlaqədar olaraq repetitorluq fəaliyyətinə icazə verilib. Bu sahə ilə məşğul olanlar hazırda abituriyent hazırlığını davam etdirirlər.

Son günlər dövlət tərəfindən pandemiyadan zərər çəkmiş müxtəlif fəaliyyət sahələrinə maliyyə yardımları ayrılması repetitorları da hərəkətə gətirib. Bu mənada ki, repetitorlar da dövlətin onlara yardım etməsini istəyirlər. Onlar bunu onunla əsaslandırırlar ki, sərt karantin rejimi müddətində onlar heç bir repetitorluq fəaliyyətilə məşğul olmadıqlarına görə maliyyə itkisinə məruz qalıblar, bu baxımdan, dövlət onların da vəziyyətini nəzərə alıb onlara yardım etməlidir.

Məsələ bundadır ki, Azərbaycanda repetitorluq fəaliyyəti qanunvericiliklə tənzimlənmir. Bundan başqa da indiyə kimi fərdi şəkildə repetitorluqla məşğul olan müəllimlərin heç biri əldə etdikləri gəlirdən dövlət büdcəsinə bir qəpik də olsun vergi ödəməyib, onların çoxunun nə VÖEN-i var, nə də başqa sənədi.

Onlar VÖEN-i ona görə açdırmırdılar ki, aylıq qazanclarından Sosial Müdafiə Fonduna və vergiyə pul ödəməsinlər. Kifayət qədər baha qiymətə repetitorluq fəaliyyəti göstərən bu şəxslərin qazanclarından büdcəyə vəsait köçürmədiyi məlumdur. Bu halda onların dövlətdən hansısa yardım ummasının düzgün olmadığını deyən təhsil ekspertləri hesab edirlər ki, repetitorlar zamanında VÖEN açdırmalı və dövlətə vergi ödəməli idi. Belə olduqda onlar hansısa yardımı uma bilərdilər.

Tanınmış təhsil eksperti Kamran Əsədovun qənaətinə görə, onların yardım almaqdan kənarda qalmasının səbəbi zamanında VÖEN almamalarıdır.

"Koronavirus pandemiyasının Azərbaycan Respublikasının iqtisadiyyatına mənfi təsirinin azaldılması üzrə proqramın ilkin mərhəsində vergi ödəyicisi kimi qeydiyyatda olan və vaxtlıvaxtında öhdəliyini yerinə yetirən şəxs və sahibkarlara dövlət tərəfindən pandemiya dövründə işləri dayandığı üçün yardımlar edildi. Əlbəttə ki, bu yardımdan kənarda qalan kifayət qədər şəxs oldu. Bu şəxslərə yardım verilməməsinin əsas səbəbi isə onların vaxtında vergi ödəyicisi kimi qeydiyyata düşməmələridir. Pandemiya dövründə işləri müvəqqəti olaraq dayananlar sırasında repetitorlar da var. Amma indiyə qədər repetitorlar dövlətə hər hansı bir vergi və sosial ödəniş etmədikləri üçün onların nə qədər itkiyə məruz qaldığını müəyyən etmək mümkün deyil. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə 10 mart 2020-ci il tarixinə 1 milyard manat həcmində vəsaitlə dəstək həyata keçirilib. Amma bundan sonra da qeydiyyatda olmayan və vergi ödəməyən repetitorlara hər hansı bir yardım nəzərdə tutulmur və bu mümkün də deyil. Bu, əslində, ədalətli bir addımdır. Çünki indiyə qədər gəlirindən kiçik bir hissəni ödəməyənlərə və gəliri barədə məlumat verməyənlərə bir istiqamət olacaq. Çünki vaxtlıvaxtında vergisini ödəyən repetitorlar da var. Ödəməyənlərə dəstək olunsa idi, bu, digərlərinə qarşı haqsızlıq olardı" - deyə K.Əsədov söylədi. "Dəstək olunan repetitorlar da onlara təqdim olunan dəstəyi layiqincə qiymətləndirəcək və bu imkanlardan geniş istifadə edəcəklər. Bütün dünyada kiçik biznesin inkişaf edib orta, sonra isə iri biznesə çevrilməsi prosesi birbaşa maliyyələşmə və şəffaf hesabat ilə bağlıdır. Düşünürəm ki, vergi ödəməyən repetitorlara dəstəklə bağlı addım atılsaydı, bu addım ölkədə kölgə təhsilinin leqallaşmasına gətirib çıxaracaqdı" - deyə K.Əsədov qeyd edir.

***İradə SARIYEVA***

# "Mobil notariatlar" etibarnamə verilişlərinə başladı - Azərbaycanda daha bir ilk...

**Məlum olduğu kimi, artıq "Mobil notariat"la etibarnamə verilməsinə başlanıb. Prosesə start verildiyi ilə bağlı məlumat Ədliyyə Nazirliyinin keçirdiyi "Pandemiya dövründə ədliyyəyə əlçatanlıq" mövzusunda videokonfransda səsləndirilib.**

"Ədliyyə xidmətlərinə əlçatanlığın asanlaşdırılması məqsədilə mobil notariatın imkanları genişləndirilərək növbəti addım kimi əhaliyə yeni - nəqliyyat vasitələrinə sərəncam verilməsinə dair etibarnamələrin elektron qaydada təsdiq edilməsi xidməti təqdim olunur" - deyə sözügedən konfransda vurğulanıb.

Qeyd edilib ki, bu xidmət mülkiyyətçi və ya etibarnamə əsasında onu təmsil edən şəxsin avtomobilin satılması, bağışlanması, dəyişdirilməsi, ipotekaya qoyulması, icarəyə verilməsi, daxili işlər orqanlarında qeydiyyata alınması və ya qeydiyyatdan çıxarılması üzrə səlahiyyətlərin seçim üzrə bütünlüklə, yaxud qismən digər şəxsə verilməsini təmin edir.

Yeni mobil tətbiq vasitəsilə avtomobil sahibləri, o cümlədən, ölkədən kənarda olan vətəndaşlar mülkiyyətçisi olduğu nəqliyyat vasitəsinə dair etibarnaməni heç yerə getmədən onlayn qaydada verə biləcəklər.

Fasiləsiz rejimdə göstərilən yeni xidmətin əsas özəlliyi ilk dəfə olaraq etibarnamələrin rəsmiləşdirilməsində videoyazı vasitəsindən istifadə edilməsidir ki, bu da həmin əqdlər üzrə sui-istifadə və vətəndaşların əmlak hüquqlarının pozulmasının qarşısını almağa xidmət edir.

Etibar edən şəxsin razılığı barədə "Mobil notariat" tətbiqində aparılan videoçəkiliş aidiyyəti notarius tərəfindən yoxlanıldıqdan və etibar edən şəxs isə hüquq və vəzifələri barədə ətraflı izahlar əldə etdikdən sonra etibarnamə qanunvericiliyə uyğun qaydada təsdiq edilir.

Etibarnamələrin elektron nüsxəsi mobil tətbiqin qovluğunda saxlanmaqla istənilən yerdə təqdim oluna bilər. Eyni zamanda, verilmiş etibarnamələr təsdiq edildikdə bu barədə məlumat dərhal daxili işlər orqanlarına informasiya sistemi vasitəsilə ötürülür.

Bu gündən tətbiq edilən yeni xidmətdən nəqliyyat vasitələrinin mülkiyyətçiləri mobil telefonların "App Store" və "Google Play" satış platformalarından "Mobil notariat" tətbiqini ödənişsiz yükləməklə, habelə artıq istifadəçi olanlar isə proqramı yeniləməklə rahatlıqla istifadə edə bilərlər.

Elektron etibarnamələrin verilməsi qaydası barədə ətraflı məlumat Ədliyyə Nazirliyinin "Facebook" sosial şəbəkə səhifəsində yerləşdirilib.

Qeyd edək ki, pandemiya dövrü ilə əlaqədar olaraq bu yenilikdən bütün vətəndaşlar, ən çox da 65 yaşdan yuxarı insanlar istifadə etməyə başlayıblar.

Nazirliyin yeni onlayn layihəsinin əhəmiyyətini şərh edən tanınmış hüquqşünas Əziz Qəmbərov "Bakı-Xəbər"ə bildirdi ki, bu, vətəndaşlar üçün nəzərdə tutulan xidmətlərin əlçatanlığının təmin edilməsi baxımından çox müsbət haldır: "Əvvəlcə qeyd edim ki, Ədliyyə Nazirliyinin tətbiq etdiyi bu layihənin vətəndaşlar üçün böyük əhəmiyyəti var. Xüsusən də pandemiya dövründə belə bir layihənin gerçəkləşdirilməsi təqdirəlayiqdir və faydalıdır. Dövlət vətəndaş üçün bu istiqamətdə xidmətin əlçatanlığı üçün mühüm addım atıb. Burada əsas diqqətçəkən məsələ dövlətin həyata keçirdiyi bu layihənin yaratdığı imkanlardan vətəndaşın məsuliyyətlə istifadə etməsi və sui-istifadə hallarına yol verməməsi ilə bağlıdır.

## *Əziz Qəmbərov: "Xüsusən də pandemiya dövründə belə bir layihənin gerçəkləşdirilməsi təqdirəlayiqdir"*




*"Elektron sistem üzrə verilən etibarnamələr xaricdə yaşayan vətəndaşlarımızın da işinin asanlaşdırılması üçün çox müsbət bir vasitədir"*

Əgər elektron etibarnaməni verən şəxsin özü elektron sistemin arxasında olacaqsa və öz iradəsini ifadə edəcəksə, təbii ki, bunun çox böyük effekti olacaq. Vətəndaş bu sistemdən istifadə etməklə notariat ofislərinə getməyəcək, vaxt itkisindən, nəqliyyat xərcindən xilas olacaq. Bu, vətəndaşa elektron etibarnamənin qazandırdığı üstünlüklərdən biridir. Bunun müsbət tərəflərindən biri də ondan ibarətdir ki, bu sistem vasitəsilə təkcə Azərbaycan ərazisində deyil, dünyanın hər yerindən "mobil etibarnamə"nin verilməsinin mümkün olmasıdır. Hazırda elə vətəndaşlarımız var ki, pandemiyaya görə xaricdədir, yaxud orada işlədiyi üçün Azərbaycana gələ bilmir və təcili bir etibarnamə verməlidir. Onlar gedib yaşadıqları ölkənin notariat ofislərinə müraciət etmək məcburiyyətində qalır və həmin etibarnaməni verən zaman əlavə xərclər ödəyirlər. Əlavə xərclər həmin etibarnamənin tərcümə edilməsi və sairdən ibarədir. Bunlar böyük xərc tələb edir. Ancaq elektron sistem üzrə verilən etibarnamələr xaricdə yaşayan vətəndaşlarımızın da işinin asanlaşdırılması üçün çox müsbət bir vasitədir".

Ə.Qəmbərovun sözlərinə görə, elektron etibarnamənin tətbiq edilməsi müsbət haldır, ancaq bundan sui-istifadə halları da ola bilər. "İndi gənc və orta nəslin nümayəndələri müasir texnologiyanı bildikləri üçün rahat şəkildə etibarnamə verə bilərlər. Əsas problem yaşlı nəsillə bağlı yaşana bilər. Bu problem nədən ibarət ola bilər? Tutalım, yaşlı nəslin hansısa bir nümayəndəsi öz iradəsini ifadə etmək üçün müvafiq məsələlər üzrə bir etibarnamə vermək istəyir, amma onun müasir informasiya texnologiyalarından istifadə etməklə bağlı təsəvvürü yoxdur. Bu halda o, kömək üçün bir başqasına müraciət etməli olar. Bu halda həmin adam ona müraciət edən yaşlı şəxsi aldada da bilər. Yəni yaşlı insanın ona göstərdiyi etibardan sui-istifadə edərək onu aldada, həmin etibarnaməyə başqa səlahiyyətlər də əlavə edə bilər, bu etibarnaməni öz maraqlarına yönəldər.

**Yəni həmin şəxsin bu etibarnaməni öz istədiyi şəkildə tərtib etməsi və bunun yaşlı şəxsin iradəsini ifadə etməməsi təhlükəsi də yarana bilər. Bu da gələcəkdə problemlər yaradar, məhkəmə predmeti olar. Bu ehtimallar da, təhlükələr də var. Bilirsiniz ki, Azərbaycanda yaşlı nəslin çox böyük bir hissəsinin texnologiyadan istifadə bacarığı yoxdur. Çox təəssüf ki, müəyyən insanlar onlara kömək üçün müraciət edən yaşlı insanların etibarından sui-istifadə etməyə meyl göstərirlər. Belə hallar ənənəvi etibarnamə verilmə prosesində çox olub".**

Ə.Qəmbərov xüsusi vurğuladı ki, vətəndaşlar, xüsusən də yaşlı nəslin nümayəndələri elekton etibarnamə verərkən diqqətli olmalıdırlar ki, bunu onun əvəzindən edən şəxslər vətəndaşın etibarından sui-istifadə etməsinlər.

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, ölkəmizdə koronavirusla mübarizə tədbirləri çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə bu il mart ayının 3-dən etibarən Azərbaycanda tədris-təlim müəssisələrində tədris prosesi müvəqqəti olaraq dayandırılıb.**

# Tələbələr keçmədikləri dərslərin də haqqını ödəyiblər - bəzi təhsil haqları geri qaytarıla bilərmi...

## *İlqar Orucov: ”Düşünmürəm ki, ali məktəblər həmin vəsaiti tələbəyə...”*

Bu gün orta, orta ixtisas, peşə təhsili müəssisələrində və ali məktəblərdə təhsil alanlar evdə onlayn şəkildə dərslərini davam etdirirlər.

Bildiyimiz kimi, ölkəmizin ali məktəblərində təhsil həm ödənişli, həm də ödənişsiz əsaslarla həyata keçirilir. Bir çox ali məktəb tələbələrdən illik təhsil haqqının tam hissəsini alıb, bəziləri isə ödənişin iki dəfəyə həyata keçirilməsinə razı olub. Odur ki, bir sıra ali məktəblərdə ödəniş iki dəfəyə qəbul edilib. Tələbələrin də əksəriyyəti həm birinci, həm də ikinci yarımildə təhsilini davam etdirmək üçün ali məktəblərə ödənişlər ediblər.

Qeyd etdiyimiz kimi, pandemiya ilə əlaqədar olaraq tələbələr bir neçə aydır dərsə getmirlər. Onların xeyli hissəsi onlayn şəkildə təhsillərini davam etdirsə də, bəziləri müəyyən texniki səbəblərdən dərslərə onlayn davam etmirlər.

Pandemiya dövründə ali məktəblər tələbələrin ödədiyi təhsil haqqının müəyyən məbləğini geri qaytara bilərmi?

Ekspertlərin əksəriyyəti hesab edir ki, ali məktəblər keçilməyən dərslərə görə tələbələrin ödədiyi təhsil haqqının müəyyən faizini ya tələbənin özünə qaytarmalı, ya da növbəti tədris ilinə hesablamalıdırlar. Onlar qeyd edirlər ki, oxuduğu ali təhsil müəssisələrinə ikinci yarımil üçün ödəniş etməyən tələbələrə də universitetlər maliyyə güzəştləri etməlidirlər. Ekspertlərin sözlərinə görə, Prezident İlham Əliyevin tapşırığına əsasən, Nazirlər Kabineti sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə qərar verib.

Ali məktəblər də dövlətin bu qərarına dəstək məqsədilə tələbələrin təhsil haqqına güzəştlər etməlidirlər. Bunun daha məntiqli olduğunu deyən ekspertlər hesab edirlər ki, bir çox tələbə təhsil haqqını tam ödəyib, onların təhsil haqqının müəyyən hissəsinin qaytarılması daha məntiqli olardı.

Bunun pandemiya dövründə tələbələrin özlərinə və ailələrinə müsbət təsir edə biləcəyini deyən ekspertlərin fikrincə, bu barədə ali məktəblər qərar verməlidirlər. Tələbə keçmədiyi dərsə görə vəsait ödəyibsə, o vəsaitin geri qaytarılmasının daha uyğun olduğunu deyən ekspertlərin bildirdiyinə görə, xüsusən də özəl ali məktəblər ilk olaraq bu addımı atmalıdırlar. Özəl ali məktəblərə sahibkarlıq subyekti kimi pandemiya dövründə dəyən ziyana görə dövlət tərəfindən maliyyə yardımı ayrıldığını qeyd edən ekspertlər bildirirlər ki, dövlət sahibkarın ziyanını ödəyirsə, sahibkarlıqla məşğul olan ali məktəb də tələbənin ziyanını ödəməlidir.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov bizimlə söhbətində məsələyə belə şərh verdi: "Bildirim ki, universitetlərdə ödəniş haqqı I kursda ilin əvvəlində tələb olunurdu, I kursdan sonra isə iki dəfəyə ödənilirdi. Keçən il Təhsil Nazirliyi ali məktəblərə çox humanist bir çağırış etdi. Nazirlik, eyni zamanda, ali məktəblərə tövsiyə etdi ki, universitetlər insanların maddi durumunu nəzərə alsınlar. Yəni kimin imkanı varsa, təhsil haqqının tam məbləğini ilin əvvəlində ödəyə bilər, kimin onu hissə-hissə ödəmək imkanı varsa, ona hissə-hissə ödəmək imkanı yaradılsın. Ali məktəb müəssisələri nazirliyin bu humanist çağırışına qoşuldular və təhsil haqqının bir neçə mərhələdə ödənilməsinə şərait yaratdılar. O ki, qaldı tədrisin məsafədən idarə edilməsi, pandemiya ilə əlaqədar olaraq tədris müəssisələrinin bağlı olması səbəbindən ödənişlərin geri qaytarılması məsələsinə, açığı, mən burada bir qədər fərqli düşünürəm. Düşünmürəm ki, ali məktəblər həmin vəsaiti tələbəyə geri qaytarmalıdırlar. Çünki, əslində, pandemiya dönəmində Təhsil Nazirliyi tədrisin məsafədən idarə olunması ilə bağlı lazım olan addımları atdı. Hətta Azərbaycan dövlətinin məsafədən təhsillə bağlı reallaşdırdığı nümunəni dünyanın elm və təhsil tutumlu ölkələrindən biri olan Böyük Britaniya ay yarım sonra olduğu kimi öz ölkəsində tətbiq etdi. Məsələn, İngiltərə Azərbaycan versiyası olan teledərslərə keçən həftədən start verdi. Bu işi Azərbaycan nümunəsi üzərində qurdu. Yaxud 2 aydan sonra Ukraynada bu proseslər Azərbaycan nümunəsinə uyğun həyata keçirildi. Yəni Azərbaycan teledərslərin timsalında yeni bir nümunə yaratdı və bəzi ölkələr də bizdən götürüb həmin nümunələri tətbiq etdilər. Təhsil Nazirliyi təkcə orta məktəblərdə, orta ixtisas müəssisələrində deyil, həmçinin, ali məktəblərdə də təhsil alanların tədrisdən geri qalmaması üçün yenə də universitetlərə tələb olunan bütün dəstək və köməkliyi göstərdi. Düzdür, ADA, UNEC və bəzi ali məktəblər öz imkanları hesablarına distant təhsilə start verdilər. Distant təhsilin təşkil olunması ilə bağlı UNEC-də olanda gördüm ki, distant təhsil keçilir və bu proses ənənəvi təhsildən heç də geri qalmır və tələbələrin dərsə davamiyyət məsələsi yalnız tələbənin istəyindən asılıdır. Doğrudur, dərsdə iştirak etməməklə bağlı heç bir cəza metodları yoxdur. Amma tələbələr istəyirlərsə, bu dərslərə qoşula bilərlər. Eyni zamanda, həmin dərslər elektron variantda bazada yerləşdirilir, ondan sonrakı mərhələdə də istifadə etmək olar. Ali təhsil müəssisələrinin çoxu baxmayaraq ki, məsafədən tədrisi idarə edir, amma növbəti mərhələdə bu prosesə qoşuldular. Demirəm ki, hamısında dərslər idealdır, amma qoşulublar".



*”Təhsil Nazirliyi tədrisin məsafədən idarə olunması ilə bağlı lazım olan addımları atdı”*

**İ.Orucov qeyd etdi ki, bu məsələdə ali məktəblər yalnız zamanında distant təhsilə keçidlə bağlı ləngilik göstərdiklərinə görə qınana bilərlər. "Bu prosesin vaxtında icra olunmaması ali məktəblərdə birbaşa rektorların günahıdır. Məsələn, necə olur ki, Gəncədəki Aqrar Universitetdə məsafədən təhsil mükəmməl şəkildə həyata keçirilir, amma Bakının mərkəzində olan ali məktəbdə distant təhsillə bağlı problem yaranır. Məsələ burasındadır ki, pandemiya dövründə bizim universitetlərin çoxunun belə hallara, fövqəladə vəziyyətlərə hazır olmadığı, müasir çağırışlardan geri qaldıqları məlum oldu" - deyə İ.Orucov vurğuladı.**

***İradə SARIYEVA***

№ 70 (4201) ■ Qiymәti: **40 qәpik**

# BAKI XƏBƏR

**2-4**
*MAY*
*2020-ci il*

**www.baki-xeber.com**



# Koronavirus hansı orqanların işini pozur?

**Sankt-Peterburq Epidemiologiya və Mikrobiologiya İnstitutunun innovasiya işləri üzrə direktor müavini Aleksandr Semyonov COVID-19-un bir çox orqana təsir etdiyini söyləyib.**

"Milli.Az" xəbər verir ki, ekspert koronavirusun qripdən fərqli xüsusiyyətlərə malik olduğunu deyib: "Koronavirus qrip deyil, yeni bir şeydir. Biz hələ belə bir xəstəliyə rast gəlməmişik. Odur ki, sətəlcəm və ya qripdən fərqli olaraq, bir çox orqana zərər verə bilər. Sadəcə, ağciyərlərə deyil, bağırsaqlar və qaraciyərə də yük düşür. Xüsusilə orta ağır xəstələrin əksəriyyətində böyrək funksiyasının pozulması müşahidə olunur. Bundan əlavə, koronavirus iybilmə qabiliyyətinin tam və ya qismən itirilməsinə də səbəb ola bilər".

Ekspert, həmçinin, koronavirusun sinir sisteminə təsirindən danışıb: "Sinir toxumasına təsir edir, bunun əlamətlərindən biri də xəstələrdə iybilmə itkisinin və şüurun pozulmasıdır. Bu virus o qədər də sadə deyil. Bu, sadə kəskin respirator xəstəlik deyil, daha fərqli və çoxşaxəli infeksiyadır".

## Dünyanın ekoloji təmiz şəhərlərinin reytinqi açıqlanıb

**Avstriyanın paytaxtı Vyana dünyanın ekoloji cəhətdən ən təmiz şəhəridir. AZƏRTAC bildirir ki, dünyanın iri şəhərləri bir neçə göstərici üzrə tədqiq olunub.**

Tədqiqatçılar ictimai yaşıllıq sahələrinin və piyada gəzinti məkanlarının sayı, havanın çirklənməsi dərəcəsi, bərpa olunan mənbələrdən enerji və su istifadəsinin həcmi, ictimai nəqliyyatdan istifadə edən insanların sayı kimi göstəriciləri müqayisə ediblər. Bu göstəricilərə görə, Vyana reytinqin lideri seçilib. Burada park və istirahət zonalarının sayı çoxdur, ictimai nəqliyyat rahatdır. Bununla yanaşı, əhalinin təxminən yarısı ətraf mühiti çirkləndirən şəxsi nəqliyyatdan imtina edib. Reytinqdə ikinci yerdə Münhen şəhəri qərarlaşıb. Parkların bol olduğu şəhərdə ictimai nəqliyyat sistemi yollarda şəxsi avtomobillərin sayını azaltmağa və havanı təmiz saxlamağa imkan verir. Siyahıda üçüncü yeri gəzinti məkanlarının çox olduğu və Avropada adambaşına minimal su sərf edildiyi, eyni zamanda, inkişaf etmiş ictimai nəqliyyat sisteminin qurulduğu Berlin şəhəri tutub. Reytinqdə dördüncü və beşinci yerlərdə Madrid və San-Paulu şəhərləri gəlir. Madridin mərkəzində çoxsaylı park, botanika bağları və piyada gəzinti zonaları salınıb. Braziliya meqapolisində isə fermer bazarlarının bolluğu müşahidə olunur, əhali isə bərpa olunan enerji mənbələrindən çox istifadə edir. İlk onluğa, həmçinin, Mançester, Lissabon, Sinqapur, Amsterdam və Vaşinqton daxil olub.






## "Bakcell" Binədə yaşayan aztəminatlı ailələrə ərzaq yardımı edib

**"Bakcell" şirkəti xüsusi karantin rejimi dövründə Azərbaycan vətəndaşlarına dəstək göstərmək məqsədilə həyata keçirilən genişmiqyaslı tədbirlər planı çərçivəsində Bakının Binə qəsəbəsində yaşayan aztəminatlı ailələr üçün ərzaq yardımı proqramı həyata keçirib.**

Ötən həftə "Bakcell" əməkdaşları Binədə yaşayan 650 aztəminatlı ailəyə baş çəkib vəşirkət adından yardım qutularını təqdim ediblər. Xəzər Rayonİcra Hakimiyyəti və Binə Bələdiyyəsinin təşkilati dəstəyi ilə və təqdim etdikləri siyahılara əsasən aksiya çərçivəsində "Bakcell" tərəfindən qəsəbədə yaşayan650 ailəyə ərzaq yardımı göstərilib.

Qeyd edək ki, bu təşəbbüs "Bakcell" tərəfindən "Covid-19"a qarşı mübarizə üzrə həyata keçirilən genişmiqyaslı tədbirlərin davamıdır. Belə ki, şirkət Koronavirusla Mübarizəyə Dəstək Fonduna 1.5 milyon manat ianə etməklə yanaşı, Azərbaycana süni tənəffüs aparatları, bədən hərarətini məsafədən ölçən xüsusi keçid-buraxılış avadanlıqları, eləcə də koronavirusa yoluxmanı yerindəcə müəyyən etməyə imkan verən 3000 ədəd ekspress-testin gətirilməsi üçün iri həcmdə vəsait ayırıb. Bundan əlavə, "Bakcell" karantin mərkəzlərində çalışan tibbi heyətə təşəkkürünü ifadə etmək üçün açıqca vasitəsilə mesajlar göndərib, bütün karantin mərkəzlərində çalışan həkimlərə və müxtəlif karantin mərkəzlərindəkivətəndaşlarımıza ödəmə kartları hədiyyə edib.

"Bakcell" şirkətisosial izolyasiya müddətində müxtəlif sosial və digər təşəbbüslər vasitəsilə Azərbaycan vətəndaşlarına, xüsusilə də həssas əhali qruplarına dəstək göstərməyə davam edəcək.




**Qoç** - Yaxınlarınızla çox yaxşı yola gedəcək, rəğbət bəslədiyiniz adamların əhatəsində vaxtınızı xoş keçirəcəksiniz. Sevgi etirafı barədə qərar vermək olar - onu diqqətlə eşidəcək və bəyənəcəklər.


**Buğa** - İşlər pis getmir. Bu gün nə ciddi problemlər, nə də aşılmaz çətinliklər gözlənilir. Onların öhdəsindən kifayət qədər tez, səhvə yol vermədən və hədər yerə güc sərf etmədən gələcəksiniz.


**Əkizlər** - Gün əziyyətli keçəcək. Məşğul olduğunuz iş sizə maraqlı gəlməyəcək. Amma çətin ki, bu işdən xilas ola biləsiniz. Kübar tədbirlərə yollansanız, ehtiyatlı olun - gülünc vəziyyətə düşmək təhlükəsi var.


**Xərçəng** - Çox əlverişli və məhsuldar gündür. Əvvəlcədən qurduğunuz planlara uyğun hərəkət etməkdə sizə heç nə mane olmayacaq. Təşkilatçılıq qabiliyyətiniz açıq şəkildə ortaya çıxacaq, istənilən kollektivdə yaxşı rəhbər olmaq gücündəsiniz.


**Şir** - Yaradıcılıq qabiliyyətinizin ortaya çıxması və intuisiyanızın güclənməsi ilə yadda qalacaq. Bu saatlarda xoşagəlməz nəticələrdən ehtiyatlanmadan hisslərinizə güvənə bilərsiniz.


**Qız** - Bütün planları həyata keçirmək mümkün deyil. Bunu nə qədər tez anlasanız, gücünüzə bir o qədər qənaət etmiş olarsınız. Nəzərə almaq lazımdır ki, dostların, həmkarların və qohumların köməyinə bel bağlamağa dəyməz.


**Tərəzi** - Vəziyyəti yaxşılığa doğru dəyişmək olar. Bunun üçün birincisi baş verənləri sakitcə götür-qoy etmək, ikincisi tamamilə yeni fəaliyyət planı qurmaq lazımdır. Bu yerdə yaradıcılıq qabiliyyətiniz tam yerinə düşəcək.


**Əqrəb** - Təmaslarda səlis olun. Bu, tək qalmağın kim gəldi onun yanında dayanmaqdan daha yaxşı olduğu günlərdəndir. Yeri gəlmişkən, tənhalıqda yaxşı-yaxşı düşünmək olar və sizin üzərində fikirləşməyə nəyinizsə var.


**Oxatan** - Çətin vəziyyətə düşəcəksiniz: özünüzün işgüzar maraqlarınız və dotslarınıza kömək arasında seçim etməli olacaqsınız. Yerinə yetirməyin çətin olduğu və imtina edə bilmədiyiniz xahişlərin çox olduğu şəraitdə ruhi tarazlığı qorumaq müşkül məsələdir.


**Oğlaq** - Ünsiyyətə meylli deyilsiniz. Bu ətrafdakıların zövqüncə olmaya bilər. Sənədlərin rəsmiləşdirilməsi ilə məşğul olan Oğlaqlar bu gün formallıqları qaydaya sala biləcək, lazım olan möhür və imzaları alacaqlar.


**Dolça** - Günün əsas tendensiyası əlverişlidir. O, həyatın müxtəlif sahələrində dəyişikliklər, maraqlı ideyaların yaranması, müttəfiqlər və həmfikirlərin tapılması ilə yadda qalacaq. Siz nəsə tamamilə yeni bir şey istəyirsiniz.


**Balıqlar** - Bu gün bel bağlaya biləcəyiniz yeganə şy sevdiyiniz adamın anlayışıdır. Öz "yarısı"nı tapmamış Balıqlar bu gün ilk baxışdan, özü də uyğun olmayan adamlara vurulmağa meyllidirlər.

***Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb***

## Pentaqonun yaydığı UNO görüntülərinin sirri açıldı

**ABŞ Müdafiə Nazirliyinin paylaşdığı UNO (uçan naməlum obyekt) görüntüləri dünyada marağa səbəb olub. "Milli.Az" xəbər verir ki, Türkiyə Astronomiya Dərnəyinin İdarə Heyətinin sədri, professor İbrahim Küçük bu görüntülərin yadplanetlilərə aid olmadığını açıqlayıb.**

Belə görüntülərin keçən il də yayıldığını xatırladan professor bildirib ki, UNO-lar, adından da göründüyü kimi, naməlum obyektlərdir: "Yəni fəzada kosmik cisimlərin hərəkəti həmişə olub.

Hətta bəzən atmosferdəki hansısa hərəkətliliyi UNO olaraq təqdim edirlər, bəzən də onlar yadplanetlilərlə əlaqələndirilir. Amma yayılan görüntülərin yadplanetlilərlə əlaqələndirilməsi doğru deyil".

Qeyd edək ki, Pentaqon UNO-larla bağlı 3 görüntü yayıb. Görüntülərin birinin 2004-cü, digər ikisinin isə 2015-ci ildə qeydə alındığı deyilir.

***Hazırladı: Namiq QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks:
*510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.